

**Birinci vitse-prezident Mehriban Əliyeva Mixail Qusmanı 70 illik yubileyi münasibətilə təbrik edib**

Bax 3



**"Procter and Gamble Europe" şirkəti regional mərkəzini Bakıda yaradacaq**

Bax 3



**Mixail Qusman: Multikulturalizmin tarixən Azərbaycan üçün həyat tərzi olduğunu söyləyən Prezident İlham Əliyev tamamilə haqlıdır**

Bax 5




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 012 (5977) **24 yanvar** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Bax 2

# Azərbaycan ilə İsveçrə arasında iqtisadi əlaqələr genişlənir

*Prezident İlham Əliyevin Davosda İsveçrə Prezidenti Simonetta Sommaruqa ilə görüşü olub*

### Yerevanda atışma: Koçaryanın ofisi yaxınlığında bir neçə nəfər girov götürülüb



Yerevanın mərkəzindəki Respublika meydanı yaxınlığında atışma baş verib. Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, hadisə "Erebuni Plaza" biznes mərkəzində kafelərin birində qeydə alınıb. Atəş açan şəxs kafedə bir neçə nəferi girov götürüb. Bax 6



### Prezidentin islahatlarının daha bir nəticəsi: Azərbaycan Korrupsiya Qavrama İndeksində 26 pillə irəliləyib

Bax 7

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və müxtəlif sahələri sistemli şəkildə əlaqələndirən islahatların müsbət nəticələri vətəndaş-məmur təmasında şəffaflıq, hesabatlılıq və rəqəmsallaşmanın genişləndirilməsi kimi korrupsiya riskini minimuma endirən indikatorlara öz töhfəsini verib. Bununla da hüquqi şəxslərin dövlət qeydiyyatı, tikinti, elektrik, əmlakın qeydiyyatı, vergi, gömrük, xarici ticarət və dövlət satınalmaları kimi ayrı-ayrı sektorların yeni inkişaf müstəvisinə keçidi stimullaşdırılıb.***

### Məzahir Pənahov seçkilərdə iştirak edən partiyalara müraciət edib



"...Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov məlumat verib. MSK sədri, həmçinin çıxışında siyasi partiyalara da xəbərdarlıq edib. O qeyd edib ki, bəzi yerlərdə siyasi partiyaların nümayəndələri qeydə alınıb: "Onlar özlərinin hansısa siyasi partiyaya mənsub olduğunu göstəriblər. Qanunvericiliyin tələbinə görə, əgər onlar siyasi partiyadan kənarlaşdırılırsa, siyasi partiya üzvlüyünə partiya tərəfindən xitam verilirsə, bununla bağlı həmin siyasi partiya MSK-ya məlumat verməlidir..." Bax 6



Bax 2

### Sergey Slobodçuk: Davos forumu Azərbaycan üçün həm taktiki, həm də strateji cəhətdən maraqlıdır

***Azərbaycan Cənubi Qafqazda aparıcı neft-qaz tədarükçüsüdür, ona görə də perspektiv baxımından Davos forumu Azərbaycan üçün həm taktiki, həm də strateji cəhətdən maraqlıdır.***



Bax 7

### "Azərbaycanda qaçqın statusu alan şəxslər arasında Əfqanıstan vətəndaşları üstünlük təşkil edirlər"

Hazırda Azərbaycanda 83 əcnəbi dövlət tərəfindən verilmiş qaçqın statusu əsasında yaşayır. Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov jurnalistlərə müsahibəsində deyib...



**"Parlament seçkilərini izləmək üçün 210-dan çox beynəlxalq müşahidəçi akkreditasiyadan keçib"**

Bax 6



**"Azərbaycanda seçki prosesi yüksək ictimai fəallıq şəraitində həyata keçirilir"**

Bax 3



**Türkiyəli futbolçu 16 yaşında "Ayaks"ın tarixinə düşdü**

Bax 16

# Azərbaycan ilə İsveçrə arasında iqtisadi əlaqələr genişlənir

*Prezident İlham Əliyevin Davosda İsveçrə Prezidenti Simonetta Sommaruqa ilə görüşü olub*






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə ikitərəfli əlaqələr müzakirə olundu, BMT Təhlükəsizlik Şurasına sədrliyi dövründə Azərbaycanın təcrübəsi barədə fikir mübadiləsi aparıldı, ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki və ümumilikdə, regionun təhlükəsizliyindəki rolu vurğulandı. Azərbaycan ilə İsveçrə arasında iqtisadi əlaqələrə toxunuldu, bu münasibətlərin inkişafından məmnunluq ifadə olundu.

Söhbət zamanı Azərbaycanda bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələsi müzakirə edildi. Prezident İlham Əliyev ölkəmizdə reallaşdırılan bərpaolunan enerji layihələri barədə məlumat verdi. Gələcəkdə turizm, nəqliyyat, kənd təsərrüfatı sahələrində də bərpaolunan enerjidən istifadənin mümkünlüyü bildirildi. Vurğulandı ki, alternativ enerjinin Azərbaycanda böyük potensialı var.

# Azərbaycanda sığorta bazarının daha da inkişafı üçün "Swiss Re" şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti dövlətimizin başçısı tərəfindən son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşməsi üçün yaxşı imkanların yarandığını bildirdi. Qeyd etdi ki, "Swiss Re" şirkəti Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının daha da inkişafına töhfə verməyə hazırdır.

"Swiss Re"nin əsasən fövqəladə hallarda yaranan sığorta hadisələri və onların təkrar sığortası üzrə dünyanın ixtisaslaşmış lider şirkətlərindən biri olduğunu deyən Veronika Skotti təmsil etdiyi qurumun müxtəlif ölkələrdə həyata keçirdiyi layihələr barədə məlumat verdi.

Dövlətimizin başçısı ölkəmizdə sığorta bazarının, xüsusilə daşınmaz əmlak sahəsində sığorta sisteminin səmərəli təşkilinin və inkişafının vacib olduğunu vurğuladı. Görüşdə bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini sürətləndirəcək xarici investorlarla, o cümlədən "Swiss Re" şirkəti ilə əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.

## Sergey Slobodçuk: Davos forumu Azərbaycan üçün həm taktiki, həm də strateji cəhətdən maraqlıdır



***Azərbaycan Cənubi Qafqazda aparıcı neft-qaz tədarükçüsüdür, ona görə də perspektiv baxımından Davos forumu Azərbaycan üçün həm taktiki, həm də strateji cəhətdən maraqlıdır.***

Bunu Trend-ə ukraynalı politoloq Sergey Slobodçuk deyib. Onun sözlərinə əsasən, Davos forumu ilk növbədə onunla maraqlıdır ki, burada Azərbaycanın Trans-Adriatik qaz boru kəməri (TAP) və Trans-Anadolu qaz boru kəməri (TANAP) vasitəsilə Avropaya qaz nəqlində iştirakı sayəsində enerji bazarında yeni statusunu bəyan etmək olar: "Biz Azərbaycanın adının hallandığı mərkəzi mövzunun "Cənub Qaz Dəhlizi" vasitəsilə qaz tədarükünün olduğunu görürük. Azərbaycan Prezidenti vurğulayıb ki, "Cənub Qaz Dəhlizi" ilə qaz 2020-ci ilin ortalarında nəql olunacaq. Biz bilirik ki, TANAP Avropanın qaz-nəqliyyat sisteminə 2019-cu ildə noyabrın sonunda qoşulub. TAP-ın işə salınması isə 2020-ci ildə planlaşdırılır".

Politoloqun sözlərinə görə, Rusiya "Cənub Qaz Dəhlizi"ndə maraqlı ola bilər, bu layihə "Qazprom"un qaz nəqli üçün də cəlbedici ola bilər: "Bir sözlə, Davos Azərbaycan üçün Avropa İttifaqı, Türkiyə, Azərbaycan və Rusiyanın maraqlarının birləşdiyi məkandır".

# “Procter and Gamble Europe” şirkəti regional mərkəzini Bakıda yaradacaq



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda “Procter and Gamble Europe” şirkətinin prezidenti Loik Tassel ilə görüşü olub.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Loik Tassel görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes sahəsində mühasibatlılığın və şəffaflığın artırılması, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirdi. Bildirildi ki, bu, “Procter and Gamble Europe” şirkətinin ölkəmizdəki fəaliyyətinin inkişafı üçün çox önəmli amildir. Azərbaycanın bugünkü biznes mühitinin bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaratdığını deyən Loik Tassel rəhbəri olduğu şirkətin ölkəmizdəki biznes və sosial fəaliyyəti barədə danışdı.

Prezident İlham Əliyev gələcəkdə də Azərbaycanda xarici investorlar üçün biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin görüləcəyini vurğuladı.

Söhbət zamanı bildirildi ki, “Procter and Gamble Europe” şirkəti fəaliyyətini Orta Asiya və Uzaq Şərqə doğru genişləndirmək niyyətindədir və regional mərkəz olaraq məhz Bakı şəhəri seçilib. Vurğulandı ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Azərbaycanda yaradılan biznes mühiti şirkətin ölkəmizdəki ofisi vasitəsilə Şərqə doğru genişlənməsinə əlverişli imkan yaradacaq.

# Birinci vitse-prezident Mehriban Əliyeva Mixail Qusmanı 70 illik yubileyi münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanı 70 illik yubileyi münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, xanım Mehriban Əliyeva çoxşaxəli istedadı, tükənməz enerjisi, yorulmaz fəaliyyəti və daim yeni yaradıcı zirvələri fəth etmək səyləri sayəsində Mixail Qusmanın cavan qalmağı bacardığını, nikbinlik və xeyirxahlığını itirməməyə müvəffəq olduğunu qeyd edib. Birinci vitse-prezident vurğulayıb ki, Mixail Qusman əsl vətənpərvər kimi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mövcud olan dostluq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə verib.

Birinci vitse-prezident Mehriban Əliyeva Mixail Qusmanı yubileyi münasibətilə səmimi qəlbdən təbrik edib, ona və ailəsinə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıb.

# Leyla Abdullayeva: Ermənistan Azərbaycanı əsassız şəkildə ittiham etməkdənsə, özünün işğalçılıq siyasətini etiraf etməlidir

***Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycanın 1990-cı ilin yanvar hadisələri ilə bağlı reaksiyasına münasibətdə şərhlə çıxış edib.***



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla bağlı açıqlama yayıb.

Leyla Abdullayeva deyib: “Öncə qeyd etmək istərdim ki, 1990-cı ilin 20 yanvar tarixində Azərbaycanın qəhrəman oğul və qızlarının ölkənin müstəqilliyi uğrunda canlarından keçərək, müasir tariximizin şərəfli bir səhifəsinə adlarını öz qanları ilə yazmalarının 30-cu ildönümü həm ölkəmizdə, həm də diplomatik nümayəndəliklərimiz tərəfindən dünyanın 60-dan çox ölkəsində anım mərasimləri ilə qeyd olundu. Beynəlxalq ictimaiyyətin, o cümlədən ölkəmizdəki diplomatik korpusun bu xüsusda bizə verdiyi dəstəyi xüsusilə vurğulamaq istərdik.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun dinc azərbaycanlılara qarşı törətdiyi qırğın insanlıq əleyhinə cinayətdir və bu cinayətə görə məsuliyyəti keçmiş sovet rəhbərliyi daşıyır. 1990-cı ilin yanvar hadisələri Azərbaycan xalqının müstəqillik əzmini qıra bilmədi və ölkəmiz dövlət müstəqilliyini bərpa etdi. Bu gün Azərbaycanın müstəqilliyi və suverenliyi bütün beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə tanınır və dəstəklənir.

O ki, qaldı Ermənistanın 1990-cı ilin yanvar hadisələri ilə bağlı apardığı uydurma təbliğata, bu kimi fəaliyyəti ilə Ermənistan tərəfi Azərbaycanın dinc əhalisinə qarşı tarixən həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini gizlətmək məqsədini güdür. Ermənistan XİN-i Azərbaycanı əsassız şəkildə ittiham etməkdənsə, öz tarixinə diqqət yetirməli, keçmiş prezidentlərinin şəxsən təsdiqlədiyi etnik təmizləmə siyasətini və yüz minlərlə azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını və beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənən işğalçı siyasəti illərdir ki, davam etdirdiklərini etiraf etməlidir”.

# “Milli Məclisə keçiriləcək seçkilər transformasiyanın yeni mərhələsi olacaq”



“Azərbaycan davamlı olaraq siyasi, iqtisadi və sosial islahatlar aparan, dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir”. SİA-nın xəbərinə görə, bunu secki-2020.az saytına açıqlamasında Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib.

“Ölkənin çiçəklənməsinin əsas təminatı azərbaycanlıların Prezident İlham Əliyevin həyata keçirdiyi keyfiyyətli dəyişikliklərə inamıdır. Şübhə yoxdur ki, Milli Məclisə keçiriləcək seçkilər transformasiyanın yeni mərhələsi olacaq. Aydındır ki, ölkənin inkişafının hər bir mərhələsi xüsusi yanaşma tələb edir. Eyni zamanda, parlamentdə də təcrübəli, bacarıqlı siyasətçilərin, fərqli dünyagörüşü olan nəslin nümayəndələrinin təmsil olunması əsas amillərdəndir. Əsas odur ki, bu şəxslər dövrün çağırışlarına çevik cavab verə bilən insanlar olsunlar”, - deyə Dmitri Savelyev vurğulayıb. Rusiyalı parlamentari bildirib ki, seçkilərdə namizədlərin sayının çoxluğu ölkədə artan siyasi fəallığın göstəricisidir: “2015-ci ilin noyabrında mən Milli Məclisə keçirilən seçkilərdə müşahidəçi idim. Həmin seçkilərdə yüksək təşkilatçılıq, şəffaflıq və demokratik mühitin şahidi oldum. Bu seçkiləri də Rusiya Dövlət Dumasının digər deputatları və Federasiya Şurasının üzvləri ilə birlikdə daxil olduğum böyük bir nümayəndə heyəti izləyəcək. Əminəm ki, bu dəfə də Azərbaycan yeni tərkibli parlamentin formalaşmasına məsuliyyətlə yanaşacaq, seçkilərin ölkənin qanunvericiliyinə və beynəlxalq hüquq normalarına tam uyğun şəkildə keçirilməsi təmin ediləcək”.

## “Azərbaycanda seçki prosesi yüksək ictimai fəallıq şəraitində həyata keçirilir”



“Müşahidələrimə əsaslanaraq, deyə bilərəm ki, Azərbaycanda parlament seçkilərinə hazırlıq prosesi yüksək ictimai fəallıq şəraitində keçirilir”. SİA-nın xəbərinə görə, bunu secki-2020.az saytına açıqlamasında rusiyalı siyasi analitik Oleq Kuznetsov deyib. Azərbaycanda keçiriləcək parlament seçkilərində müşahidəçi qismində iştirak edəcəyini bildirən Oleq Kuznetsov deyib: “Azərbaycanın seçki qanunvericiliyinə uyğun olaraq çoxlu sayda insan imza toplayaraq namizədlik üçün müraciət edib. Azərbaycan cəmiyyətinin ictimai fəallarının böyük əksəriyyətinin namizədliyi qeydə alınıb”.

Analitik qeyd edib ki, namizədliyin irəli sürülməsi və qeydə alınması prosesi qanunla müəyyən edilmiş bütün demokratik prosedurlara tam uyğun həyata keçirilib.

# DAVOS Forum: Yeni layihələrə açılan nəhəng yol

*Davos İqtisadi Forumu Azərbaycanın uğurlarının bütün dünyaya tanıdılmasında önəmli rol oynayır*




***Yanvarın 21-də İsveçrənin Davos şəhərində 50-ci Dünya İqtisadi Forumu işə başlayıb. 24 yanvaradək davam edəcək iqtisadi foruma 117 ölkədən 3 min siyasətçi, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və jurnalistlər qatılıb. Sammitdə "Uyğunlaşmış və davam etdirilə bilən bir dünyanın tərəfdarları" mövzusu ilə 400-dən çox açıq və qapalı iclasın keçirilməsi planlaşdırılıb. Davosda 50-dən çox ölkə prezident və baş nazir səviyyəsində təmsil olunur.***

Forumda hər il, bir sıra mühüm qlobal problemlər, siyasi, geosiyasi və təhlükəsizliklə bağlı əhəmiyyətli məsələlər müzakirə olunur. Xatırladaq ki, əsası 1971-ci ildə isveçrəli professor Klaus Şvab tərəfindən qoyulan və qərargahı Cenevrədə yerləşən Davos İqtisadi Forumu dünyada ən böyük beynəlxalq qeyri-hökumət təşkilatıdır. Müxtəlif ölkələrin prezidentləri, baş nazirləri, iş adamları, eləcə də, dünyanın tanınmış şəxsləri üçün Davos İqtisadi Forumu bir tribuna rolunu oynayır. Forumda qəbul edilən qərarlar tövsiyə xarakteri daşıyır. Burada beynəlxalq aləmdə ciddi narahatlıq doğuran məsələlər, müxtəlif ölkələrdən investisiyaların cəlb olunması, iqtisadi vəziyyət və ayrı-ayrı dövlətlərin potensialı müzakirə olunur.



### "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu"

Dövlətimizin başçısı İlham Əliyev artıq 14-cü dəfədir ki, iştirak etdiyi Davos İqtisadi Forumunda indiyədək dünyanın aparıcı iş adamları ilə görüşüb, onlarda ölkəmizin iqtisadi imkanları barədə aydın, obyektiv təsəvvür yaradıb və Azərbaycanda həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrini dünyaya çatdırıb. Məhz bütün bunların nəticəsidir ki, ölkəmizə investisiya qoyuluşu və yeni texnologiyaların gətirilməsi prosesi sürətlənib.

Ən əsas məqam isə zirvə toplantısından bir neç gün öncə, Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsinin yerləşdirilməsidir. Dövlət başçımız həmin məqaləsində bildirir ki, Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platformadır: "Mən 2007-ci ildən başlayaraq, artıq 14-cü dəfədir ki, Davosda bu forumun İllik Toplantısında iştirak edəcəyəm. Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir".

Prezident İlham Əliyev məqaləsində "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında dünyanın lider islahatçı ölkəsi kimi tanındırdığının qeyd edir. Bildirir ki, Azərbaycanda gerçəkləşdirilən islahatlar nəticəsində, 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən, qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq, 4,9 faizə çatıb. Bu dövrdə respublikamız iki dəfə "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

Məqalədə, həmçinin, diqqətə çatdırılır ki, 2007-ci ildən keçən dövr ərzində, ölkəmizə 111 milyard ABŞ dollarından çox xarici investisiya cəlb olunub ki, bu da iqtisadiyyatın bütün sahələrində irəliləyişləri təmin edib. Nəticə etibarilə, Davos İqtisadi Forumunun açıqladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın mövqeyi 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəlməklə, 2019-cu ildə "Əhalinin elektrik təchizatı səviyyəsi" üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında, "Hökumət tənzimləməsinin yükü" və "Əcnəbi işçilərin işə qəbulunun asanlığı" üzrə 3-cü yerdə, "Hökumətin dəyişməyə cavabdehliyi" üzrə 5-ci yerdə, "Biznesə başlama üçün tələb olunan günlərin sayı" üzrə 8-ci yerdə, "Hökumətin uzunmüddətli strategiyası" üzrə isə 10-cu yerdə qərarlaşıb.

Dövlət başçısı məqalədə, eyni zamanda, qeyd edir ki, 2019-cu ildə nəqliyyatın ayrı-ayrı sahələri üzrə "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz ön yerlərdə qərarlaşıb. Bu, nəqliyyat və yol infrastrukturunun əhəmiyyətli inkişafı, həmçinin, sözügedən istiqamətdə xarici və yerli investisiyalardan səmərəli istifadə edilməsi, əməkdaşlığa mühüm önəm verilməsi ilə mümkün olub.

Məqalədə yuxarıda sadalananlarla yanaşı, Azərbaycanda ekoloji tarazlığın qorunu-saxlanılması, yerli və beynəlxalq daşımaların idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən, təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə "Ağıllı şəhər" konsepsiyasına start verilməsi, ölkəmizin Avropanın enerji təminatında fəal iştirak etməsi, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına nail olması kimi məsələlərə toxunulub. Həmçinin, Azərbaycan "Doing Business 2020" hesabatı üzrə dünyada 191 ölkə arasında 34-cü yerdə qərarlaşdığı vurğulanır.

Göründüyü kimi, Azərbaycan Prezidenti ənənəvi Davos İqtisadi Forumuna hər zaman mühüm önəm verib, forum çərçivəsində keçirdiyi görüşlərdə ölkəmizin regionda həlledici mövqeyə malik aparıcı dövlət kimi tanınmasında əhəmiyyətli rol oynayan məqamlara toxunub.

Bir sözlə, Prezident İlham Əliyev Davosda keçirilən gürüşlər zamanı etdiyi çıxışlarda, verdiyi müsahibələrdə təkcə mövcud iqtisadi potensialımız haqda deyil, eyni zamanda, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın işğalı ilə ölkə iqtisadiyyatına vurulmuş ziyanla bağlı da iştirakçıları ətraflı şəkildə məlumatlandırıb.

### "Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu, belə də davam edəcək"

Prezident İlham Əliyev 50-ci Dünya İqtisadi Forumu zamanı bir çox şirkət rəhbərləri ilə görüşlər keçirib. Dövlət başçısı Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşü zamanı ötən beş il əvvəlki əməkdaşlıqla bağlı görüşləri xatırladıldı. Prezident İlham Əliyev beş il əvvəl irəli sürdüyü təklifin nəticəsində tərəfdaşlığın yarandığını qeyd edib: "Bu təklifi ciddi nəzərə aldığına görə, OPEC-ə minnətdaram və biz, həqiqətən, çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda, qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu, bizim ümumi məqsədimiz idi".

Dövlət başçısı onu da bildirib ki, bu əməkdaşlığın bundan sonra da güclənəcəyini deyib: "Mən OPEC+ formatında görüşlərin birinin Bakıda keçirilməsi ilə bağlı təşəbbüsə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən sizi dəvət etdim və siz bu dəvəti qəbul etdiniz. Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu, belə də davam edəcək".

Dövlət başçısı, həmçinin, İsveçrəyə işgüzar səfəri çərçivəsində "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə, Davosda "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə, "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat, "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşləri olub.

Bütün bunlar, onu deməyə əsas verir ki, zəngin təbii ehtiyatlara malik olan, əlverişli coğrafi-siyasi məkanda yerləşən Azərbaycanın beynəlxalq aləmlə əməkdaşlığa töhfələri davamlıdır və yüksək dəyərləndirilir. Şübhə yoxdur ki, forumdakı müzakirələrdə əldə edilən nəticələr əsasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinə təsirli təkan verən faktorlardan olacaq. Bütövlükdə, Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksələcək, əməkdaşlığın inkişafı, ölkəmizə investisiya axınının artması üçün daha geniş imkanlar yaranacaq və növbəti Davos Forumunda yeni uğurları ilə iştirak edəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Mixail Qusman: Multikulturalizmin tarixən Azərbaycan üçün həyat tərzi olduğunu söyləyən Prezident İlham Əliyev tamamilə haqlıdır

***"Rossiyskaya qazeta"da TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusmanla "Mixail Qusmanın həyat formulu" adlı müsahibə dərc olunub. AZƏRTAC həmin müsahibəni oxuculara təqdim edir. Təxminən 400 prezident, baş nazir və krallar onun həmsöhbəti olublar. Öz yubileyi ərəfəsində isə o, özü müsahibə verib. Mixail Qusman TASS informasiya agentliyi baş direktorunun birinci müavini, "Hakimiyyət formulu" televiziya proqramının müəllifi və aparıcı kimi 400-ə yaxın prezident, baş nazir, sultan və krallardan müsahibə götürüb. Özünün neçə müsahibə verdiyini hələ saymayıb, lakin dəqiqdir ki, onlarla müsahibə verib. Onlardan ikisini, o cümlədən indi sizin oxuduğunuzu, bu sətirlərin müəllifinə verib. Peşəsi informasiya ilə bağlı olan insana hər hansı xəbər motivi olmadan müsahibə üçün müraciət etmək mənim tərzim deyil. Lakin səbəb var: Qusmanın 70 yaşı tamam olur və biz onunla iyirmi ilə yaxındır ki, tanışıq.***




## Bakının havasında dostluq və mehriban qonşuluq atmosferi var

**-Yubileyi qeyd etmək üçün Bakıya gedəcəksən?**

-Mixail Qusman: Bəli.

**-Sən öz yubileylərini həmişə orada qeyd edirsən?**

-Mixail Qusman: Həmişə belə olmayıb, lakin bunu hər zaman arzulamışam. Bakı sadəcə uşaqlıq xatirələrim, gənclik illərim demək deyil, bu şəhər mənim dünyaya baxış tərzimdir. Məhz Bakı mənə dünyagörüşü bəxş edib.

**-Bunu açmaq mümkündürmü?**

-Mixail Qusman: Mümkündür. Mən müharibədən beş il sonra dünyaya gəlmişəm. Biz Bakının kiçik həyətində, kommunal mənzildə yaşayırdıq. Lakin Bakı havasında mən özümü dərk etdiyim ilk günlərdən dostluq və mehriban qonşuluq atmosferi hiss etmişəm. "Mehriban qonşuluq" kəlməsi adətən siyasi kontekstdə istifadə olunur, ölkələr arasında münasibətlərə aid edilir. Mən isə bir həyətdə olan mehriban qonşuluqdan danışıram. Mənim kabinetimdə hansısa bakılı rəssam tərəfindən çəkilmiş və dostum Yura Məmmədovun hədiyyə etdiyi tablo asılıb. Orada mənim Bakıdakı evim təsvir edilib. Daha dəqiq, 1899-cu ildə tikilmiş köhnə ev. Pyotr Montin (indiki Əlövsət Quliyev) küçəsi, 111 nömrəli ev. Doqquz mənzil, hamısı da kommunal. Həyətdə hər cür şərait vardı. On bir millətin nümayəndəsi yaşayırdı. Əlbəttə, məişət zəminində münaqişələr də olurdu. Hansısa ev xanımı paltar qurutmaq üçün özünün yox, başqasının zivəsindən istifadə edirdi. Həmin vaxt bütün həyətdə hay-küy qalxırdı. Lakin bunun da öz ləzzəti vardı. Bayramların hamısını birlikdə qeyd edirdik. Bizdə - həyətdəki uşaqlarda elə təsəvvür vardı ki, bütün həyatımız bayramdır. Ona görə ki, provaslovların Miladı qurtardıqdan sonra azərbaycanlıların Novruzu başlayırdı. Sonra da yəhudi bayramları, hansısa tatar şənlikləri... Həm də nədənsə katolik olan Stasik dayı vardı. Hərçənd, biz "katolik" sözünün mənasını başa düşmürdük, lakin bilirdik ki, o, kilsəyə gedir.

**-Səncə bu mehriban qonşuluq atmosferi bu gün Bakıda qalırmı?**

-Mixail Qusman: İndi "multikulturalizm" adlı yeni anlayış dəbdədir. Mürəkkəb anlayışdır, Avropada o qədər də kök salmayıb. Lakin hesab edirəm ki, multikulturalizmin tarixən Azərbaycan üçün həyat tərzi olduğunu söyləyən Prezident İlham Əliyev tamamilə haqlıdır. Amma əvvəllər bunu indi o qədər də dəbdə olmayan "xalqlar dostluğu" söz birləşməsi, yaxud "beynəlmiləlçilik" siyasi termini ilə ifadə edirdilər. Mən Sovet İttifaqı adlanan Yer kürəsinin bütün altıda bir hissəsi barədə mülahizə yürüdə bilmərəm, hansı müttəfiq respublikada nələr olduğunu da bilmirəm, lakin məsuliyyətlə və əlimi İncilə, Qurana və ya Tövrata qoyaraq deyə bilərəm ki, çoxmillətli Bakı həqiqətən də bir ailə kimi yaşayırdı. Kiçik bir misal gətirmək istəyirəm. Bir dəfə ÜLKGİ-in Mərkəzi Komitəsi Azərbaycanın komsomol təşkilatında gənclərin beynəlmiləlçilik tərbiyəsi ilə bağlı işin vəziyyətini yoxlayırdı. Birdən maraqlı bir detal aydın oldu. Bu detal əvvəllər heç bir komsomol təşkilatının hesabat sənədlərinə daxil edilmirdi: Bakıda gənclər arasında millətlərarası nikahın sayı SSRİ-dəki orta göstəricilərdən dəfələrlə çox idi. Yəni, azərbaycanlı oğlanlar rus qızları ilə, rus oğlanlar erməni qızları ilə, erməni oğlanlar yəhudi qızları ilə evlənirdilər. Bu, tarixi həqiqətdir.

**-Niyə məhz Bakıda belə idi?**

-Mixail Qusman: Bunun bir neçə səbəbi var. Ən başlıcası XIX əsrin sonunda neft bumu idi. Rusiyanın neft Klondaykına hər yerdən insanlar axışırdı. Yəhudi məskənlərindən, rus kəndlərindən, kiçik və kasıb Avropa ölkələrindən. Təhsilli və savadsız insanlar. Onlar neft mədənlərində işləməyə başladılar. Müxtəlif dini icmalar meydana gəldi. Bütün bunlar tədricən, on illər boyu bu fenomeni - Bakının daxilində millətlərarası mehriban dostluq münasibətlərini yaratdı. Təəssüf ki, zaman keçdikcə, Bakı bəzi məziyyətlərini itirdi. O, daha az rəngarəng oldu. Lakin indi də parlaqdır. İndi də multikulturaldır. Müasir Bakı öz atmosferi ilə əvvəlki kimi dostluqla zəngindir.

**Mənim valideynlərim görkəmli şəxsiyyətlər olublar**

-Üç il əvvəl sən öz valideynlərinin haqqında kitab nəşr etdirdin və onu "Atam və anam haqqında kitab" adlandırdın. Mənim oxuduğuma görə, kitabın hər səhifəsi sevgi, səmimiyyət və nostalgiya hissləri ilə doludur. Deyə bilərsənmi, valideynlərini minnətdarlıqla xatırlamaq arzusu, ailə albomunu vərəqləmək, uşaqlıq və gənclik illərinə qayıtmaq səndə yaşla ələqədarmı yaranıb?

-Mixail Qusman: Mənə elə gəlir ki, təkcə mən yox, bir çoxları illər sonra buna ehtiyac duyurlar. Bax biz Bakı haqqında danışırıq. O, mənə həm də valideynlərimin dəfn olunduğu şəhər kimi əzizdir. Anam erkən vəfat edib, hələ qocalmamışdı. Atam çox yaşasa da, o da mənim erkən gənclik illərimdə dünyasını dəyişib. Mənim Bakıya gəlişim həm də onların məzarlarını ziyarət etmək ehtiyacı ilə bağlıdır. İllər keçdikcə, bu ehtiyac zəifləmir, sadəcə mən onu fiziki cəhətdən hiss edirəm. Mənim valideynlərim mübaliğəsiz olaraq görkəmli şəxsiyyətlər olublar. Parlaq, istedadlı və ağıllı. İnsanların məni təqdim etdiyi vaxt "Bu Solomon Moiseyeviçin və Lola Yuliyevnanın oğludur" deməsi həmişə çox xoşuma gəlirdi. Atam artıq müharibəyə qədər Xəzər Gəmiçilik Xəstəxanasının baş həkimi idi, anamın birinci ixtisası aktrisa olub, sonra tərcüməçi, pedaqogika elmləri doktoru, Xarici Dillər İnstitutunun professoru səviyyəsinə yüksəlib. Mən hər gün xəyali olaraq onların hər ikisi ilə ünsiyyət saxlayıram. Ailəmizin yaşadığı evdə isə Azərbaycan Prezidenti Heydər Əliyevin 12 iyul 2000-ci il tarixli Solomon Moiseyeviç Qusmanın və Lola Yuliyevna Barsukun xatirəsinin əbədiləşdirilməsi haqqında Fərmanına uyğun olaraq xatirə lövhəsi qoyulub.

**-Sən oraya gəlirsən?**

-Mixail Qusman: Əlbəttə. Lakin məhz evə, mənzilə deyil. Mənzildə mənə yad olan insanlar yaşayırlar. Ata evi artıq mənə məxsus deyil.

## Bizim agentlikdə kiçik TASS xəbərini şedevrə çevirməyə qadir olan görkəmli peşəkarlar var

**-Sən 1995-ci ildən TASS-da işləyirsən. Agentlik ötən 25 ildə necə dəyişib? Axı sən təkamül prosesini müşahidə etmisən.**

-Mixail Qusman: Mən oraya ANKOM-TASS-ın vitse-prezidenti vəzifəsinə gəlmişəm. Bu bölmə analitik materiallar və şərhlərlə məşğul olurdu. Ona əfsanəvi jurnalist, Amerika üzrə mütəxəssis, keçmişdə "Pravda"nın siyasi şərhçisi olmuş Tomas Kolesniçenko rəhbərlik edirdi. Mən orada işlədim, sonra bir il müddətinə beynəlxalq əməkdaşlıq, ictimai əlaqələr və xüsusi layihələr baş idarəsinin rəhbəri oldum. TASS-a 21 il ərzində rəhbərlik edən Vitali İqnatenko agentliyin fəaliyyətini xeyli dəyişdi, onu daha müasir, dünya standartlarına uyğun səviyyəyə gətirdi. Mən beynəlxalq əlaqələrə cavabdeh idim və indi də elədir. TASS bu gün demək olar ki, dünyanın bütün agentlikləri ilə tərəfdaşlıq əlaqələrinə malikdir.

**-Sən həm də xarici informasiya blokuna kuratorluq edirsən?**

-Mixail Qusman: Mən inzibati olaraq, baş direktorun birinci müavini kimi onlara kuratorluq edirəm. Lakin bu sahənin həm də redaksiya rəhbərliyi var.

**-Hər halda bu illər ərzində informasiya ilə iş prosesi dəyişib. Nəyi praktikadan çıxarıblar, indi ilk planda nələr var?**

-Mixail Qusman: Deməliyəm ki, informasiyaya münasibət, onun seçilməsi prinsipləri, qiymətləndirilməsi, yoxlanılması bir sadə səbəbdən radikal şəkildə dəyişdirilə bilməz. Məhz ona görə ki, onun əsasında müxbir dayanır. O, hər hansı informasiya və ya gərgin müharibənin əziyyətini çiynində daşıyan piyada əsgərdir. Bəli, əlbəttə, müxbir də dəyişib. Birinci Dünya Müharibəsinin iştirakçısına bənzəyən dünənki əsgər müasir qacetlərlə silahlanmış bugünkü kiber döyüşçüdən fərqlənir. Lakin əsas məqsəd informasiyanın birinci olaraq əldə etmək, onu birinci ötürmək və məxsusi xəbər əldə etməkdir. Başqa məsələdir ki, müasir texnologiyalar indi bunu daha tez yerinə yetirməyə imkan verir.

**-Bəli... Baxarsan ki, tezliklə rəqəmsal qurğular informasiyanı özləri tapacaq və ötürəcək. Onda nə olacaq? Müxbirlərə ehtiyac olmayacaq?**

-Mixail Qusman: Bu gün həyatın bütün sahələrində süni intellektin imkanları tez-tez müzakirə olunur. Bu, KİV-lərin fəaliyyətinə də aiddir. Eşidəndə ki, süni intellekt artıq indi xəbərlər hazırlayır, onda deyirəm ki, bəli, o, informasiya "ətindən" xəbər "kolbasası" hazırlaya bilər. Dostlarım, lakin gəlin araşdıraq: bəli, kompüterlər sözün idman mənasında dama kimi oyunu məhv etdilər. Həm 64 xana, həm də 100 xanalıq. Bəli, kompüter bu gün hətta böyük şahmatçılara da qalib gəlir. Kompüter Kasparova və Karpova, habelə Kramnikə - soyadı "K" hərfi ilə başlayan hər üç görkəmli qrossmeysterləri məğlub edib. Lakin mən onların hər üçü ilə bu barədə söhbət etmişəm.

Bəli, kompüter qalib gəlib. Lakin o, şahmatı sıradan çıxara bilməyib. Niyə? Çünki kompüter qalib gələ bilər, amma dahiyanə kompozisiyaları, yaradıcı həll variantlarını tapmağa qadir deyil. Kompüter musiqi bəstələyə bilər, ancaq heç vaxt şedevr yarada bilməyəcək. Süni intellekt rəsm əsərləri çəkəcək, amma dahiyanə tablolar yarada bilməyəcək. Kompüter heç vaxt yaradıcı amil kimi müxbiri əvəz edə bilməyəcək. Mənə deyirlər: TASS-ın işində hansı yaradıcılıq var? On sətir, on beş sətir... Lakin bizdə kiçik TASS xəbərlərini şedevrə çevirə bilən görkəmli peşəkarlar var. Dmitri Qoroxov bizim Parisdəki bölmənin rəhbəridir. Vasili Qolovnin bizim Tokiodakı bölmənin rəhbəridir. Andrey Kirillov bizim Pekindəki bölmənin rəhbəridir... Mən onların parlaq peşəkarlar olduğundan danışmaqla yanaşı, həm də oçerk, xüsusi reportaj və məqalə janrlarında məharətlərini də qeyd etmək istəyirəm.

**-TASS-ın üslubunu sən necə müəyyən edərdin?**

-Mixail Qusman: TASS-ın üslubu hər şeydən əvvəl informasiyanın mütləq dəqiqliyidir. İfadə tərzinin ciddiliyi, ölçülüb-biçilmiş yanaşma və obyektivlik. Bu sözlərin ən yaxşı mənası dövlətçilik və vətənpərvərlikdir. Bəli, biz dövlət agentliyik. Bizim sahibimiz dövlətdir. Konkret desək, RF-nin hökuməti. Lakin biz hökumətin divar qəzeti deyilik, dövlət informasiya siyasətini öz nizamnaməmizə uyğun şəkildə, onun başa düşdüyümüz kimi həyata keçiririk. Bizə heç kim nəyi dərc edib-etməmək barədə göstərişlə zəng etmir. Bu planda dövlət bizə tam etimad göstərir. Bu etimad təkcə konkret olaraq baş direktor Mixaylova, onun birinci müavini Qusmana və ya baş redaktor Petrova deyil, dövlət institutu kimi bir çox onilliklər ərzində informasiya işində yüksək peşəkarlığını sübut etmiş TASS-a göstərilir.

**-Müasir jurnalistikada sənin ən çox xoşuna gəlməyən nədir?**

-Mixail Qusman: Səthilik və "sarılıq". Mən böyük məyusluqla Aleksandr Sergeyeviç Puşkinin sözlərini təkrar etməyə məcburam: "Biz tənbəlik və heç nə ilə maraqlanmırıq". Ona görə də bu gün, informasiyanın sel kimi axdığı bir şəraitdə, böyük sayda arxivlərin açıldığı bir zamanda, bütün xarici mənbələrin əlçatan olduğu bir dövrdə biz informasiya dənizinin səthindən informasiya köpüklərini yığmaq yox, onun dibinə daha dərin dalmalıyıq.

*Ardı Səh. 6*

# Mixail Qusman: Multikulturalizmin tarixən Azərbaycan üçün həyat tərzi olduğunu söyləyən Prezident İlham Əliyev tamamilə haqlıdır

Əvvəli-Səh-5

Rusiya neft ölkəsidir və mənim sevimli bir analogiyam var. Mən deyirəm: "Biz, TASS əməkdaşları həyat laylarında xam neft qazanlara bənzəyirik. Biz həyatın laylarından xam neft - informasiya hasil edirik. Sonra onu üzə çıxarırıq. Televiziya işçiləri ondan informasiya benzini düzəldirlər. Radioçular - informasiya kerosini. Qəzetçilər - informasiya mazutu. Jurnallar isə - plastmas. Onların hamısının bünövrəsində isə bizim informasiyanın xam nefti dayanır.

**-Tarixə qovuşmuş sovet jurnalistikasında nəyi qaytarmaq istərdin?**

-Mixail Qusman: Şərh və publisistik materialların sayını. Bu gün Bovin və yazının keyfiyyətinə görə ona yaxın olan heç kim yoxdur. Valentin Zorin yoxdur. Bu insanlar təkcə mövzunu ən yüksək səviyyədə bilməsi ilə deyil, həm də heyrətamiz erudisiyası ilə seçilirdilər. Bu gün kəskin, mübariz, hətta deyərdim ki, peşəkar səviyyədə yazanların sayı çox azdır. Amma oxuduğum zaman əmin olmuram ki, müəllif mövzuya dərindən bələddir. Bir oxucu kimi məni təkcə mətn inandırmamalıdır. Mən hiss etməliyəm ki, məqalə müəllifin dərinliyinə qədər bələd olduğu mövzusunun yalnız kiçik bir hissəsidir.

### Feyk xəbərlər dünyada sabitliyə təhdiddir

**-Sən haradasa dərs deyirsən?**

-Mixail Qusman: Mən vaxtaşırı Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasında və Diplomatiya Akademiyasında mühazirələr oxuyuram. Mənim bir mövzum var. Son vaxtlar ona daha çox diqqət yetirirəm. Bu mövzu yetərincə sərt səslənir: "Feyk xəbərlər dünyada sabitliyə təhdid kimi". Mən həqiqətən də hesab edirəm ki, bizim informasiya əsrində feyk xəbərlər bəşəriyyətə və dünya nizamına qorxunc təhlükədir.

**-Feyk xəbərlər deyəndə, nəyi nəzərdə tutursan?**

-Mixail Qusman: Mən səhvləri, qüsurları, yanlışlıqları və ya düzəlişləri onlara aid etmirəm. İnformasiya işçiləri olan bizlərdən heç kəs bunlardan sığortalanmayıb. Mən feyk xəbərlər deyəndə, hansısa məqsədə çatmaq üçün geniş və ya çox konkret auditoriyanın beynini şüurlu və məqsədyönlü şəkildə zəhərləməyi nəzərdə tuturam. Bunun arxasında hansısa dövlət, anarxist və ya terrorçu qruplaşma, müəyyən korporasiya dayana bilər. Kibercinayətkarlıq və kiberhücumlar kimi anlayışlarla sıx bağlı olan feyk xəbərlər dramatik və təhlükəli vəziyyətlər yarada bilər.

**-Tələbələrə feyk xəbəri dürüst xəbərdən fərqləndirməyi öyrədəndə, onlara nə deyirsən?**

-Mixail Qusman: Mən deyirəm ki, indi bizim daxil olduğumuz dünya çeşidli informasiya məhsulu bir yerə toplandığı üçün bundan sonra daha da mürəkkəb olacaq. Belə bir analogiya gətirirəm. Mənim nənəm və babam mağazaya gələrək deyirdilər: bizə bir baton çörək, bir qədər kolbasa və yarım kilo pendir verin. Valideynlərim isə konkret, şərti olaraq desək, Borodino çörəyi, "həvəskar" kolbasa və Kostroma pendiri alırdılar. İndiki ev xanımları mağazaya gələndə kolbasanı hansı fabrikin istehsal etdiyinə, tərkibində hansı inqrediyentlərin olmasına, bədnam palma yağının olub-olmamasına baxırlar. Əvvələn, biz seçim məsələsinə xüsusi diqqət yetirməyə başlamışıq. İkincisi, zəhərlənmək istəmirik. İnformasiya da elə kolbasa kimi məhsuldur. İnformasiya ilə zəhərlənmək istəmirsənsə, onda zəhmət çək, həmin informasiya kolbasasının istehsalçısını öyrən. Onun inqridiyentlərini yoxla. Daxilindəki süzgəcdən keçir. Etibar etdiyin və dəfələrlə yoxladığın informasiya mənbələrini müəyyən et. Çünki coşqun informasiya dəryasında boğulmaq və zəhərli informasiya suyu ilə doymaq təhlükəsi var. Mən TASS-ın böyük sorğu xidmətinə etibar edirəm. Mən öz müxbirlərimə etibar edirəm. İnformasiyanın anonim olmaq hüququ yoxdur. Anonim informasiya imzasız məktuba bənzəyir. Burada iftira və böhtan ola bilər. İnformasiyanın müəllifi və dəqiq ünvanı olmalıdır.

### Ölkələrin çoxunda hakimiyyət getdikcə insanlara daha çox yaxınlaşır

**-İyirmi il ərzində "Hakimiyyətin formulu" proqramını hazırlayırsan, bu hakimiyyətə sahib olmuş və hazırda hakimiyyətdə olan dörd yüzə qədər insanla söhbət etmisən. Bu müddət ərzində dövlət liderinin öz ölkəsinə və dünyaya münasibətdə vəziyyətində güclü dəyişikliklər olubmu?**

-Mixail Qusman: İndicə səninlə informasiya məkanında texnoloji dəyişikliklərdən danışdıq. Düşünürəm ki, bu dəyişikliklər liderliyin texnologiyasına da güclü təsir göstərib və demək olar ki, "hakimiyyətin formulu"na dəyişikliklər edib.

**-Nəyi nəzərdə tutursan?**

-Mixail Qusman: Bu gün liderlərin ölkələrin əksəriyyətində hakimiyyətin insanlara getdikcə daha çox yaxınlaşması mənasında əvvəlkindən daha çox "lüt kral" olduqlarını. Bu, bizim ölkəmizə də aiddir. Əgər Moskva sakini Leonid İliç Brejnevi (mən hələ Stalini demirəm) başında şlyapa Mavzoley tribunasında duran vəziyyətdə ildə iki dəfə - noyabrın 7-də və mayın 1-də Qızıl meydandan keçərkən görürdüsə, Rusiyanın indiki lideri öz ölkəsinin vətəndaşları ilə müxtəlif formatlarda, demək olar, hər gün söhbət edir. Ümumiyyətlə müasir liderlərdə öz xalqı ilə ünsiyyət saxlamaq zərurəti kəskin artıb. Bu kommunikasiya müxtəlif formalar ala bilər. Məsələn, Prezident Trampın "twit"ləri bütün dillərdə zarafat obyektinə çevrilib. Vladimir Putin isə televiziya formatına üstünlük verir. Onun məşhur mətbuat konfransları da maraqlıdır.

Bəzən məni qınayırlar ki, hansısa ölkənin prezidenti ilə az qala ona tay insan kimi söhbət edirəm.

O, öz auditoriyasını, cəmiyyətin sorğularını beləcə daha yaxşı hiss edir. Nəhayət, liderlərin özləri arasındakı kommunikasiya da təkamül edib. XIX əsrdə bir hökmdarın digərinə qaz lələkləri ilə yazdığı uzun məktubları adi məktublar, sonra teleqramlar əvəz edib. Stalin, Ruzvelt və Çörçilin bir neçə cildlik məşhur yazışması bunun ən bariz nümunəsidir. Bu gün isə praktiki olaraq hər gün telefon danışıqları və yaqin ki, kommunikasiyanın hansısa digər formaları var. Onların bir-birinə mesaj göndərib-göndərmədiyini bilmirəm, lakin sürətli əlaqə saxlamağın hansısa formaları dəqiq var. Beləliklə, nə qədər qəribə olsa da, lider daha adi insana çevrilir. Məni bəzən qınayırlar ki, hansısa ölkənin prezidenti ilə az qala ona tay olan insan kimi söhbət edirəm. Ədalətsiz iraddır. Mən özüm və dövlət başçısı arasında fərqi başa düşürəm. Amma mən başqa məsələni də - hazırda hər ikimizin işdə olmasını da başa düşürəm. Dövlət başçısı üçün yanına gəlmiş jurnalistə müsahibə vermək onun peşə fəaliyyətinin cüzi hissəsidir, mənim üçün isə ondan müsahibə almaq mənim peşə fəaliyyətimin böyük hissəsidir. Lakin ikimiz də işdəyik. Bu mənada, şəksiz ki, ikimiz də bərabərik.



## AŞPA-nın nümayəndə heyəti Milli Məclisdə olub

Milli Məclis Sədrinin müavini Bahar Muradova fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ərəfəsində seçki kampaniyasını və siyasi mühiti qiymətləndirmək üçün ölkəmizdə ikigünlük səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndə heyətinin üzvləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə bağlı vəziyyət müzakirə edilib. Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrin inkişafından danışan məruzəçi Stefan Şennak ölkəmizin quruma üzvlüyünün 19 ilinin tamam olduğunu diqqətə çatdırıb. Əmin olduğunu bildirib ki, müstəqil, demokratik ölkə olan Azərbaycanda seçkilər ədalət prinsipləri əsasında keçiriləcək.

Milli Məclisin Sədr müavini nümayəndə heyətinə Azərbaycandakı yeniliklər, tərəqqi barədə məlumat verib. Bildirib ki, islahatlar yolunu tutan Azərbaycanda keçiriləcək parlament seçkiləri bu prosesin bir hissəsidir.

Azərbaycan cəmiyyətində qadınların rolundan danışan Bahar Muradova Milli Məclisdə, idarəetmədə onların saylarının artmasının əhəmiyyətini vurğulayıb. B.Muradova seçicilər tərəfindən daha çox gənclərə üstünlük veriləcəyinə inandığını bildirib. Görüşdə Avropa Şurası Bakı ofisinin rəhbəri Zoltan Heyners, Avropa Liberallar və Demokratlar Alyansının təmsilçisi Alfred Heer, eləcə də Milli Məclisin deputatları Sahibə Qafarova və Sevinc Fətəliyeva iştirak edirdilər.

Xatırladaq ki, AŞPA-nın geniş nümayəndə heyəti seçkiləri müşahidə etmək üçün Azərbaycana fevralın 9-da gələcək.

## Məzahir Pənahov seçkilərdə iştirak edən partiyalara müraciət edib



Seçki Məcəlləsinə azı 10 gün qalmış bülletenlər hazırlanmalıdır. Biz yaxın bir neçə gün ərzində bu prosesə başlayacağıq.

Trend-in məlumatına görə, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov məlumat verib. MSK sədri, həmçinin çıxışında siyasi partiyalara da xəbərdarlıq edib. O qeyd edib ki, bəzi yerlərdə siyasi partiyaların nümayəndələri qeydə alınıb: "Onlar özlərinin hansısa siyasi partiyaya mənsub olduğunu göstəriblər. Qanunvericiliyin tələbinə görə, əgər onlar siyasi partiyadan kənarlaşdırılırsa, siyasi partiya üzvlüyünə partiya tərəfindən xitam verilirsə, bununla bağlı həmin siyasi partiya MSK-ya məlumat verməlidir. Partiya məlumat verdiyi halda o, şəxslərin partiya mənsubiyyəti göstərilmir, bitərəf kimi qeyd olunur. Bununla bağlı MSK-ya bəzi partiyalar bu cür məlumatlar göndəriblər. Beləliklə, məlumatlar təqdim olunduğu şəkildə, həmin şəxslər həm MSK-nın bazasında, həm də seçki bülletenində bitərəf kimi qeyd olunacaq. Bu barədə növbəti iclasımıza qədər partiyalar bizə məlumat verməlidir". Qeyd edək ki, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək.

## "Parlament seçkilərini izləmək üçün 210-dan çox beynəlxalq müşahidəçi akkreditasiyadan keçib"



Hazırkı məlumata görə, Azərbaycanda fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkiləri izləmək üçün 210-dan çox beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Secki-2020.az saytında yer alan məlumata görə, bunu jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədr müavini Rövzət Qasımov deyib. Beynəlxalq müşahidəçilərin müraciətlərini ünvanlamaqda davam etdiklərini bildirən R.Qasımov deyib : "Ümid edirik ki, beynəlxalq müşahidəçilərin sayı daha da artacaq. Bildiyiniz kimi, seçkilərdə bütün respublika ərazisində müşahidə aparmaq üçün ərizələr Mərkəzi Seçki Komissiyasına səsvermə gününə 10 gün qalmışa qədər davam edir. Beynəlxalq müşahidəçilərin də akkreditasiyası üçün son vaxt da məhz həmin gündür. Bu günlərdə onların sənədlərinin Mərkəzi Seçki Komissiyasına daxil olması daha da intensivləşəcək", - deyə R.Qasımov bildirib.

### Yerevanda atışma: Koçaryanın ofisi yaxınlığında bir neçə nəfər girov götürülüb



Yerevanın mərkəzindəki Respublika meydanı yaxınlığında atışma baş verib. Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, hadisə "Erebuni Plaza" biznes mərkəzində kafelərin birində qeydə alınıb. Atəş açan şəxs kafedə bir neçə nəfəri girov götürüb.

Hadisə yerinə xüsusi təyinatlılar və təcili yardım briqadaları cəlb olunub. Mərkəz əhatəyə alınıb. Əməliyyat davam edir. Hadisənin təfərrüatı ilə bağlı araşdırma aparılır. Qeyd edək ki, "Erebuni Plaza" ölkəni sabiq prezidenti Robert Koçaryanın ofisinin yaxınlığında yerləşir.

# Prezidentin islahatlarının daha bir nəticəsi: Azərbaycan Korrupsiya Qavrama İndeksində 26 pillə irəliləyib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və müxtəlif sahələri sistemli şəkildə əlaqələndirən islahatların müsbət nəticələri vətəndaş-məmur təmasında şəffaflıq, hesabatlılıq və rəqəmsallaşmanın genişləndirilməsi kimi korrupsiya riskini minimuma endirən indikatorlara öz töhfəsini verib. Bunun la da hüquqi şəxslərin dövlət qeydiyyatı, tikinti, elektrik, əmlakın qeydiyyatı, vergi, gömrük, xarici ticarət və dövlət satınalmaları kimi ayrı-ayrı sektorların yeni inkişaf müstəvisinə keçidi stimullaşdırılıb.***




AZƏRTAC xəbər verir ki, keçirilən sistemli islahatlar artıq müsbət nəticələrini verməkdədir. Belə ki, “Beynəlxalq Şəffaflıq” Təşkilatının (Transparency International) 2019-cu il üzrə tərtib etdiyi Korrupsiya Qavrama İndeksində (KQİ) Azərbaycan 30 balla 26 pillə irəliləyərək 180 ölkə arasında 126-cı sırada yer alıb. 2018-ci ildə Azərbaycan 25 balla 180 ölkə arasında 152-ci yerdə qərarlaşmışdı.

Ötən il dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri həyata keçirilməkdə olan sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq daha intensiv xarakter alıb, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri konkret əməli-praktiki addımlarla müşayiət olunub.

Aparılan genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərməklə dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına mühüm töhfə verən, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan “ASAN xidmət” mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 16 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən qısa müddət ərzində bu xidmətə 34 milyondan çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin “bir pəncərə”dən təqdim edilməsinə imkan verən nadir layihə kimi “DOST mərkəzləri”nin fəaliyyətə başlaması kimi əhəmiyyətli tədbirlər ölkəmizin mötəbər KQİ-də əhəmiyyətli dərəcədə irəliləməsi ilə nəticələnib.

Qeyd edək ki, 1993-cü ildə Berlində təsis edilən “Beynəlxalq Şəffaflıq” Təşkilatı dövlət və özəl sektorlarda mövcud korrupsiya haqqında araşdırmaların aparılması və digər fəaliyyətləri həyata keçirir. Təşkilatın dünyanın yüzdən çox ölkəsində yerli bölmələri var. Qurumun Azərbaycan nümayəndəliyi olan “Şəffaflıq Azərbaycan” Təşkilatı 2000-ci ildə təsis edilib və 2001-ci ildə qeydiyyatdan keçərək fəaliyyət göstərir.

Ötən il Korrupsiya Qavrama İndeksinin hazırlanmasında ümumilikdə 13 fərqli hesabatdan istifadə edilib. Azərbaycana dair məlumat isə Bertelsman Fondu (Bertelsmann Foundation), İqtisadi Təhlil Birliyi (Economist Intelligence Unit), “Freedom House”, “Global Insight”, “Political Risk Services”, “Varieties of Democracy Project” kimi müxtəlif mötəbər mənbələr əsasında hazırlanıb. Bu mənbələr antikorrupsiya siyasətinin səmərəliliyinə təsir göstərən bir sıra siyasi, iqtisadi və sosial xarakterli meyarlar üzrə ölkələrin mövqeyini qiymətləndirir. Hazırda Azərbaycanın 26 pillə irəliləməsi onu göstərir ki, Prezidentin yürütdüyü siyasət təkcə ölkə daxilində yox, beynəlxalq arenalarda da düzgün nəticələr verir.

KQİ “Beynəlxalq Şəffaflıq” Təşkilatının 1995-ci ildən etibarən dərc etdiyi ən başlıca hesabatlardan biridir. Müxtəlif mənbələrə əsaslanaraq sistemli şəkildə hər il dünya ölkələrində korrupsiyanın qavranılmasına dair məlumatları və təhlilləri özündə əks etdirən hesabatda ölkələr üzrə qiymətləndirmə 2013-cü ildən etibarən 100 bal (çox yaxşı) - 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyənləşdirilir. 2012-ci ilədək qiymətləndirmə 10 bal (çox yaxşı), 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyən edilirdi. KQİ-nin hazırlanmasında ümumilikdə 13 fərqli hesabatın göstəriciləri nəzərə alınıb.

Korrupsiya Qavrama İndeksində ölkəmizin mövqeyinin əhəmiyyətli dərəcədə irəliləməsində digər faktorlarla yanaşı, dövlətimizin başçısı İlham Əliyevin imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanın icrası ilə yeni müstəviyə keçən məhkəmə-hüquq islahatlarının müstəsna rolu var. Bu aktın qəbulu digər ali məqsədlərlə yanaşı, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ixtisaslaşmış məhkəmələrin yaradılması və təşkilini, mübahisələrin alternativ həllini, beynəlxalq arbitraj prosedurlarının, habelə vahid məhkəmə təcrübəsinin tətbiqini şərtləndirib.

Azərbaycanın dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi islahatlar və əldə etdiyi nailiyyətlər bu sahədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bu fikir yanvarın 15-də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində 2019-cu il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı təşkil edilmiş mətbuat konfransında ifadə olunub. Hazırda “Beynəlxalq Şəffaflıq” Təşkilatının tərtib etdiyi Korrupsiya Qavrama İndeksinin mövcud göstəriciləri ölkəmizdə bu sahədə əldə edilən nailiyyətləri növbəti dəfə təsdiqləyir.

## “Azərbaycanda qaçqın statusu alan şəxslər arasında Əfqanıstan vətəndaşları üstünlük təşkil edirlər”



Hazırda Azərbaycanda 83 əcnəbi dövlət tərəfindən verilmiş qaçqın statusu əsasında yaşayır. Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov jurnalistlərə müsahibəsində deyib.

Vüsal Hüseynov bildirib ki, həmçinin Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən verilmiş mandat əsasında Azərbaycanda yaşayan şəxslər də var. Onların sayı hazırda 2101 nəfərdir. Azərbaycanda qaçqın statusu alanlar müxtəlif ölkələrin vətəndaşlarıdır. Onların arasında İran, Misir, Suriya və Rusiya vətəndaşları da var. Ölkəmizdə əsasən Əfqanıstan vətəndaşları üstünlük təşkil edirlər.

# Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb



***Müasir inkişaf mərhələsində kadr siyasətinin əsas məqsədi dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasıdır. Məlumdur ki, kadr siyasəti hər bir dövlətin adekvat fəaliyyət göstərməsi üçün zəruridir. Bu gün Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb. Dövlət idarəçiliyində peşəkar kadrların önə çəkilməsi artıq ənənə halını alıb. Prezident İlham Əliyevin perspektivli kadrların irəli çəkilməsinə xüsusi diqqət yetirməsi demək olar ki, bütün sahələrdə yüksək səviyyəli kadr bazasının yaranmasına töhfə verməkdədir.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Nurəddin İbrahimov bildirib. Politoloq qeyd edib ki, ümummilli lider Heydər Əliyevin apardığı siyasətin mərkəzində də məhz bu istiqamət prioritet idi. Ulu Öndər deyirdi ki, dövlət idarəçiliyinə səmərəli, təşəbbüskar, xalqını düşünən kadrların cəlb edilməsi vacibdir.

Hazırda ölkəmizdə uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Bununla bağlı bir sıra qanunlar qəbul edilib, konsepsiyalar hazırlanıb, gənclər sektorunda böyük uğurlara imza atılıb. 2019-cu il həm də dövlət başçısının apardığı kadr və struktur islahatları ilə yadda qaldı. Perspektivli və təcrübəli gənclərin dövlət idarəçiliyində mühüm postlara təyin olunmasının kifayət qədər nümunələrini görmək mümkündür. Şübhəsiz ki, bütün bu addımlar Azərbaycanda insan inkişafının daha da yüksəlməsinə, əhalinin sosial-iqtisadi problemlərinin həllinə yönəlib.

Ümummilli lider Heydər Əliyevin bizə irs qoyduğu bu zəngin təcrübəyə əsaslanaraq, eləcə də beynəlxalq təcrübəyə istinad edərək idarəçilik mədəniyyəti yüksək olan, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr bazasını genişləndirmək bu gün dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Belə ki, gənclərin dövlət idarəçiliyinə cəlb olunması, onların potensialının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılması, könüllülük hərəkatının genişləndirilməsi mühüm tələbə çevrilib. Gənc kadrların peşəkarlığının, səriştəliliyinin yüksək olmasından ölkənin nəinki bu günü, həmçinin gələcəyi də çox asılıdır. Eyni zamanda, gənc kadrların üzərinə çox böyük məsuliyyət düşür.

Politoloq qeyd edib ki, indi idarəetmədə kadrların nəzəri və praktiki hazırlığı məsələlərinə tələb də artır. İndi hazırlanan kadrlar gərək ekstremal vəziyyətlərdə düzgün, məntiqli qərar qəbul etmək, konkret şəraitə uyğun vəzifələrin öhdəsindən gəlmək, mühakimə bacarığına malik olmaq kimi keyfiyyətlərə yiyələnməlidirlər. Gənclər dövlət idarəçiliyində bu kimi keyfiyyətlərini ortaya qoymağı bacarmalıdırlar. Odur ki, bu vəzifələrə uyğun kadrlar hazırlanması, onların səriştəliliyi, peşəkarlığının artırılması işi də daim təkmilləşməli, kadrların elmi-nəzəri səviyyəsi yüksəldilməli və praktiki iş təcrübələri artırılmalıdır. Bunun üçün tədris prosesinin təşkili, onun forma və metodları da inkişaf etdirilməli, təkmilləşdirilməlidir.

Bu gün savadlı, müasir dünyagörüşlü, vətənpərvər gənc kadrların formalaşdırılması, mühüm dövlət postlarına rəhbər vəzifəyə gətirilməsinin kadr siyasətinin tərkib hissəsi kimi qəbul olunduğunu deyən politoloq bu işin öz peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinə görə dövlət qulluğu vəzifələrini tutmağa layiq olan kadrların müəyyən edilməsi və seçilmiş namizədlərin müntəzəm şəkildə hərtərəfli inkişaf etdirilməsi üzərində qurulmasına önəm verildiyini diqqətə çatdırıb. O xatırladıb ki, 2019-cu il iyulun 26-da Prezidentin Sərəncamı ilə “Yüksəliş” müsabiqəsi təsis edilib. Müsabiqədə məqsəd intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi, ölkədə kadr ehtiyatı bankının inkişaf etdirilməsidir.

Dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi, mühüm vəzifələrin onlara həvalə olunması, etibar edilməsi üçün layiqli və ədalətli seçimin aparılması üçün prosedur mövcuddur. Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, dövlət idarəçiliyində gənc kadrların müəyyənləşməsi, yüksəlməsinin təbii proses olaraq aparılması üçün də Prezident öz tövsiyələrini verib. Dövlət başçısının yeni təyin etdiyi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərini qəbul etməsi, onlara zəruri tapşırıqlar verməsi, o cümlədən əhali ilə sağlam münasibətlərin qurulması istiqamətində verdiyi tövsiyələrdə bu prosesə aydın izah verilir. Prezidentin “biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Ona görə də kadr islahatları labüddür və qaçılmazdır. Yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər” sözləri dövlət idarəçilik sahəsində işləyən bütün rəhbərlərə aid olmalıdır. Bu məsələyə konseptual formada yanaşmaq tələb olunur, dövlətin kadr siyasəti elmi əsaslar üzərində qurulmalı, yeni kadr siyasətinin elmi platforması işlənilməlidir.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir*

## YAP-ın namizədi Siyavuş Novruzovun “Daha güclü Azərbaycan naminə” şüarı altında seçicilərlə keçirdiyi görüşləri uğurla müşahidə edilir







5 saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzovun seçicilərlə silsilə görüşləri davam edir. Növbəti görüşlər Şahbuz rayonunun Gömür, Kolanı, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Mahmudoba, Nursu, Daylaqlı, Sələsüz və Mərəlik kəndlərində keçirilib. YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov görüş zamanı hüquqi və demokratik dövlət olan Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət kursunun, eləcə də, dərin islahatlar strategiyasının uğurlu nəticələrindən bəhs edib. O, Azərbaycanın beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanındığını seçicilərin diqqətinə çatdırıb. Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətləri barədə danışaraq deyib: “Hər hansı bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir. Şübhəsiz ki, seçkilərin nəticələri partiyanın cəmiyyətdaxili siyasi proseslərdə yeri və rolunu müəyyən edir, insanların ona rəğbət və etimadını göstərir. Bu baxımdan, YAP bu günə qədər qatıldığı bütün seçkilərdə - bələdiyyə, parlament və prezident seçkilərində möhtəşəm zəfərlərin altına imza ataraq, qələbələr partiyası olduğunu sübuta yetirib. Bu, hər şeydən əvvəl, YAP-ın öz gücünü xalqın dəstəyindən aldığını göstərir və partiyanın fəaliyyəti Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Əminliklə söyləmək olar ki, partiyamız fevralın 9-da keçiriləcək parlament seçkilərində də xalqın dəstəyi və etimadı əsasında növbəti möhtəşəm qələbə qazanacaq”.

Görüşlərdə çıxış edən seçicilər ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən addımların Azərbaycanın qüdrətinin artmasını şərtləndirdiyini diqqətə çatdırıblar. Bildirilib ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü olmayan müstəqil Azərbaycan dövləti hər bir vətəndaşın inam yeri və qürur mənbəyidir. Seçicilər ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını diqqətə çatdıraraq, qeyd ediblər ki, hər bir vətəndaşın öz üzərində dövlətin hərtərəfli qayğısını hiss etməsi təqdirəlayiq haldır.

Sakinlər, eyni zamanda, Prezident İlham Əliyevin muxtar respublikanın inkişafına böyük önəm verməsini məmnunluq və minnətdarlıq hissi ilə diqqətə çatdırıblar. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə inkişafa, tərəqqiyə və firavan gələcəyə xidmət edən mühüm işlərin görüldüyünü, insanların rifahının - həyat şəraitinin daha da yaxşılaşdığını diqqətə çatdıraraq, qazanılmış nailiyyətlərin əhəmiyyətindən bəhs ediblər. Onlar Şahbuz rayonunda və onun bütün kəndlərində genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılmasının, yüksək infrastruktur təminatının yaradılmasının sakinlərə göstərilən xüsusi diqqət və qayğının daha bir bariz nümunəsi olduğunu vurğulayıblar.

Seçicilər Yeni Azərbaycan Partiyasının xalqın etimadını doğrultduğunu, ölkəmizin inkişafına dəyərli - layiqli töhfələr verdiyini bildiriblər. Onlar daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər. Görüş zamanı sakinlərin təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

## Nərimanov rayonu seçicilərinin seçimi bəllidir - Hikmət Babaoğlu!



Yanvarın 22-də parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 19 saylı Nərimanov birinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayon gəncləri ilə növbəti görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev 9 fevral parlament seçkiləri haqqında danışıb, seçkilərin ölkəmizin ictimai-siyasi həyatında mühüm bir hadisə olduğunu qeyd edib.

Görüşdə çıxış edən deputatlığa namizəd Hikmət Babaoğlu Milli Məclisdə fəaliyyəti dövründə Nərimanov rayon seçicilərini ləyaqətlə təmsil etməyə çalışdığını söyləyib. Onun sözlərinə görə, mütəmadi olaraq, seçicilərlə görüşlər keçirilib, onların qaldırdıqları məsələlər parlament tribunasından səsləndirilib, eləcə də, həll edilməsi üçün aidiyyəti dövlət qurumlarına ünvanlanıb.

Hikmət Babaoğlu bildirib ki, demokratik siyasi sistemə malik olan Azərbaycanda seçkilər yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirilir. Onun sözlərinə görə, Azərbaycan siyasi palitrasının ən güclü ictimai-siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası mütəmadi qələbələr qazanır və seçki təcrübəsini daim artırır. Deputatlığa namizəd əlavə edib ki, YAP bu gün Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərir və uğurla inkişaf edir: “Eyni zamanda, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində həm partiyamız, həm də dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın daxili və xarici siyasəti müstəqilliyi ilə seçilir. Bugünkü müstəqilliyimizin qorunub inkişaf etdirilməsi məsələsində də gənclərin üzərinə böyük məsuliyyət düşür. Prezident İlham Əliyev də çıxışlarında gənclərə inandığını vurğulayıb”.

YAP-ın hər zaman gəncliyin inkişafına dəstək verdiyini deyən Hikmət Babaoğlu gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Görüşdə çıxış edən gənclər 9 fevral seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

## Masallı seçiciləri Məşhur Şahbaz oğlu Məmmədova səs verəcək





Dünən 9 fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində 70 saylı Masallı şəhər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məmmədov Məşhur Şahbaz oğlunun “Daha güclü Azərbaycan naminə!” devizi altında rayonun Həsənli

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir

kəndində ayrı-ayrı ailələrlə görüşlər keçirib və onların problemləri ilə tanış olub.

Görüş zamanı namizəd Məşhur Məmmədov Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin mahiyyətindən bəhs edib, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşlarının rifahı və mənafeyinin dayandığını bildirilib. Eyni zamanda, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə göstərilən xüsusi diqqət və qayğıdan bəhs edib.

Sonra deputatlığa namizəd Məşhur Məmmədov kənddə ucaldılan şəhidlərin abidə - kompleksini ziyarət edib və bildirib ki, kənd sakinləri, Qarabağ əlilləri və onlara bərabər tutulan şəxslərin bundan sonra da dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunacaqlar. Görüş iştirakçıları ölkə rəhbərliyi, şəxsən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

YAP-ın parlament seçkilərinə namizədi Məşhur Məmmədov, həmçinin, bu seçkidə namizədi olduğu partiyanın amalının "Daha güclü Azərbaycan naminə!" olduğunu vurğulayıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının növbəti dəfə seçkilərdə böyük və inamlı qələbə qazanacağına əmindir. Məşhur Məmmədov millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, partiyanın seçki platforması barədə dolğun və ətraflı məlumat verib.

Görüşdə çıxış edənlər Məşhur Məmmədovun millət vəkili seçilməyə layiq olduğunu vurğulayıb və 9 fevralda keçiriləcək seçkilərdə, məhz ona səs verəcəklərini bildiriblər.

### YAP-ın namizədi Ağalar Vəliyevin seçicilərlə silsilə görüşləri uğurla davam etdirilir






Yeni Azərbaycan Partiyasından 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınmış Ağalar Vəliyevin "Daha güclü Azərbaycan naminə" şarı altındakı təbliğat kampaniyası və seçicilərlə silsilə görüşləri uğurla davam etdirilir. Yanvarın 21-də Goranboy rayonunda yerli seçki qərargahının üzvləri və ictimaiyyətin



nümayəndələri ilə birgə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib və abidənin önünə tər gül-çiçək dəstələri qoyub, eləcə də, 20 Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə rayonun Şəhidlər Xiyabanını ziyarət edib və şəhidlərin ruhunu ehtiramla yad edib.

Ağalar Vəliyev rayonun Qızılhacılı qəsəbəsində, Tatarlı və Tapqaraqoyunlu kəndlərində Azərbaycanın Milli Qəhrəmanları Niyazi Aslanovun, Sərxan Ocaqverdiyevin, Yunis Əliyevin və şəhid atası Tariyel Abbasovun ailə üzvlərilə görüşüb. Səmimi keçən görüşlərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə göstərilən qayğıdan söz açılıb və xüsusi vurğulanıb ki, son 16 il ərzində şəhid ailələrinə və Qarabağ əlillərinə 7500 - dən çox mənzil və fərdi yaşayış evi, 7000 -ə yaxın minik avtomobili verilmiş, 18000-ədək şəhid vərəsəsi 11 000 manat məbləğində birdəfəlik ödəmə ilə təmin edilib.

Ağalar Vəliyev görüşlər zamanı milli qəhrəman və şəhid ailələrinin problemləri ilə maraqlanmış və bildirib ki , şəhid ailələri, Qarabağ əlilləri və onlara bərabər tutulan şəxslər bundan sonra da dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunacaq. Görüş iştirakçıları tərəfindən, ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub.

Təbliğat kampaniyası ilə əlaqədar olaraq, Ağalar Vəliyev, eyni zamanda, Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbə, Yuxarı Ağcakənd qəsəbə, Börü kənd, Qaraçinar kənd və Yenikənd kənd seçiciləri ilə də görüşüb.

Qeyd edək ki, görüşlərdə YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov çıxış edərək, Ağalar Vəliyevin fəaliyyəti barədə geniş məlumat verərək, seçiciləri ona səs verməyə çağırıb. Görüşlərdə çıxış edən Ağalar Vəliyev seçicilərə öz seçki platforması barədə məlumat verib, onların problemlərini dinləyib və əminliklə bildirib ki, bu gün xalq-dövlət vəhdətinin təməlində, məhz xalqın maraqlarının təmin olunması reallığı dayanıb və o, bütün fəaliyyəti ilə bu maraqların inkişafına öz töhfəsini verməyə daim hazırdır.

"Biz öz seçimimizi etmişik, fevral ayının 9-da Ağalar Vəliyevə yekdilliklə səs verəcəyik" deyən seçicilər onun namizədliyini dəstəkləyəcəklərini, birmənalı olaraq, vurğulayıblar.

Ağalar Vəliyevin növbəti görüşü yanvarın 22-də Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində keçirilib. Görüşdə Goranboy YAP rayon təşkilatının yerli qərargah üzvləri, ictimaiyyətin nümayəndələri, Qarabağ müharibə veteranları şəhid ailələri, veteranlar və çoxsaylı kənd sakinləri iştirak ediblər. YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov görüşü açaraq, YAP tərəfindən namizədliyi irəli sürülmüş Azərbaycan Respublikasının Milli Məclisinə namizəd Ağalar Vəliyevin 2015-2019-cu illər ərzində, deputat kimi fəaliyyəti barədə seçicilərə ətraflı məlumat verib.

Görüşdə çıxış edən təbliğat qrupunun üzvü Nofəl Köçərli bildirib ki, ötən müddət ərzində, Milli Məclisin üzvü kimi Ağalar Vəliyev seçicilərin etimadını layiqincə doğruldub. Bir deputat kimi, Ağalar Vəliyev seçicilərin qaldırdıqları problemlərin həlli istiqamətində əməli köməklik göstərilib, daima seçicilərlə yüksək səviyyədə işgüzar görüşlər keçirilib.

Görüşdə çıxış edən qərargah üzvləri Müsəddiq Qədimov, Müşfiq Sadıqov Zeyvə kənd sakini Nəmət Abbasov, Leyla Rəsulova, Müsəllim Kazımov, Məhyəddin İbrahimov Şəfəq kənd sakinləri Kamran Məmmədov, Zakir Rəcəbov, Cama Abdullayev çıxış edərək, Ağalar Vəliyevin Yeni Azərbaycan Partiyası tərəfindən 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsindən VI çağırış Milli Məclisə namizədliyinin irəli sürülməsini yüksək alqışlayıblar. Onlar 9 fevral 2020-ci ildə YAP yenidən növbəti qələbəsinə imza atacaq və Ağalar Vəliyev öz seçicilərinin etimadını qazanacaq.

Görüşdə çıxış edən Azərbaycan Respublikasının Milli Məclisinə namizəd Ağalar Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə apardığı köklü islahatlar və görülmüş işlərin əhəmiyyəti haqqında seçicilərə ətraflı məlumat verərək, bildirib ki, son 16 il ərzində ölkəmiz böyük bir tərəqqi yoluna çıxmışdır. Bəzi iqtisadi göstəricilərə görə, nəinki MDB məkanında, hətta dünya dövlətləri sırasında öncül sıra yerlərdən birini tutmuşdur.

Ağalar Vəliyev çıxışının sonunda bildirib ki, əgər ona yenidən etimad göstəriləcəksə, seçicilərin etimadını doğruldacaq. O, bütün seçicilərinə səmimi minnətdarlığımı bildiririb və hər birini seçkilər günü fəal olmağa səsləyib, uğurlar arzulayıb.

### Nərimanov rayonunda şəhid ailələri ilə görüş





Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayonunda yaşayan şəhid ailələrini ziyarət edib. Şəhid ailələrinin üzvləri ilə görüşən Hikmət Babaoğlu Vətənimizin bütövlüyü uğrunda canlarını qurban vermiş oğullarımızla xalqımızın hər zaman qürur duyduğunu bildirib. Onun sözlərinə görə, xalqımız şəhidlərimizi daim böyük ehtiramla anır, onların ailələrinə xüsusi hörmətlə yanaşır. Hikmət Babaoğlu deyib ki, dövlətimizin siyasətində şəhid ailələrinə diqqət və qayğı mühüm yer tutur.

Ardı Səh. 10

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh 8-9

O, hələ ötən ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşünü xatırladıb və bu görüşün əhəmiyyətini vurğulayıb: "Görüşdə şəhid ailələrinin nümayəndələrinə dərin hörmətini ifadə edən Prezident İlham Əliyev şəhidlərimizə Allahdan rəhmət dilədi, onların torpaq və Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini dedi. Prezident İlham Əliyev şəhid anasının ayağa qalxmasına izin vermədi, özü onun yanına getdi və bir daha şəhidlərimizin və onların ailələrinin bizim üçün nə qədər dəyərli olduğunu nümayiş etdirdi. Milli birliyimizi də, torpaqlarımızın azad olunmasını da, Vətənimizin bölünməzliyini də təmin edəcək mənəviyyat budur. Ona görə də, ərazi bütövlüyümüzün bərpa olunacağı gün uzaqda deyil".

Deputatlığa namizəd söyləyib ki, Ali Baş Komandanımız hər zaman qətiyyətlə bəyan edir ki, Azərbaycan xalqı və dövləti heç vaxt bu işğalla barışmayacaq: "Doğrudan da, ötən illər ərzində həyata keçirilən müstəqil siyasət güclü iqtisadiyyatımızın yaranmasına, beynəlxalq münasibətlər sistemində ölkəmizin yerinin və rolunun möhkəmlənməsinə gətirib çıxarıb ki, bunlar da ərazi bütövlüyümüzün bərpa olunması üçün real geostrateji şərtlər formalaşdırıb".

Hikmət Babaoğlu qeyd edib ki, Prezident İlham Əliyevin diqqəti daim şəhid ailələrinin, müharibə veteranlarının və onların ailələrinin üzərində olub. Hər şeydən öncə, məhz xalqımızın qürur yeri olan bu ailələrin problemlərinin həlli əsas sosial prioritet kimi müəyyənləşdirilib. Təsadüfi deyil ki, bu vaxta qədər belə vətəndaşlara minlərlə mənzil və avtomobil verilib. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə, mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da, şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşır, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır. Prezident İlham Əliyevin Fərmanına əsasən, şəhid ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələr verilib. "Prezident İlham Əliyevin siyasətində şəhid ailələrinə qayğı davamlı xarakter daşıyır. Bu amil şəhidlərimizin və onların ailələrinin hər birinin Azərbaycan dövləti və xalqı üçün son dərəcə dəyərli olmasının sübutudur" deyə Hikmət Babaoğlu vurğulayıb.

Fevralın 9-da ölkəmizdə parlament seçkilərinin keçiriləcəyini deyən deputatlığa namizəd Yeni Azərbaycan Partiyasının Seçki Proqramında da şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları, qaçqın və məcburi köçkünlərimizlə bağlı məsələlərin diqqət mərkəzində olduğunu vurğulayıb.

Öz növbəsində, şəhid ailələrinin üzvləri dövlətimizin qayğısından razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, şəhid ailələrinin üzvləri bütün seçkilərdə Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasına səs verirlər.





## Deputatlığa namizəd Aydın Hüseynov seçicilərlə Sahil qəsəbəsində görüşüb



Dünən Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülən partiyanın rayon təşkilatının sədri Aydın Hüseynovun seçicilərlə görüşləri keçirilib. Seçicilərlə mənzillərdə və həyətlərdə mütəmadi görüşərək, YAP-ın seçki platforması barədə məlumat verən Aydın Hüseynovun növbəti görüşü MSK tərəfindən namizədlər üçün nəzərdə tutulmuş məkanda - Sahil qəsəbəsində olub.

Təmsil olunduğu partiyanın cəmiyyətimizdə rolunu yüksək qiymətləndirən deputatlığa namizəd Aydın Hüseynov qeyd edib ki, müstəqilliyimizin məhv olma və ölkəmizin parçalanma təhlükəsi ilə üzləşdiyi bir məqamda yaranan YAP xalqın yekdil dəstəyi ilə iqtidar partiyasına çevrilməklə, Azərbaycanı fəlakət böhranından birdəfəlik xilas edərək, inkişaf etməkdə olan dövlətə çevirdi. Partiyamızın qurucusu və ilk Sədri Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli rəhbərliyi sayəsində bütün sahələr üzrə ölkəmizdə təməli qoyulan inkişaf bu gün partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlbəil artan dövlət büdcəmiz xalqın sosial rifah halının durmadan yaxşılaşmasına öz müsbət təsirini göstərməkdədir. Beynəlxalq təşkilatların araşdırmalarına görə ölkəmiz, nəinki regionda, o cümlədən, dünya birliyində yüksək sürətlə inkişafı ilə seçilir.

YAP-ın müstəqillik tarixində müstəsna rolunu konkret faktlarla diqqətə çatdıran Aydın Hüseynov növbəti parlament seçkiləri üçün seçki platformasına da aydınlıq gətirib. Qeyd edib ki, "Daha güclü Azərbaycan naminə" devizi ilə seçkilərə qatılan partiyamızın məqsədi ölkəmizin durmadan inkişafına nail olmaqdır.

Görüşdə çıxış edən seçicilər YAP-ın ölkəmizin tərəqqisi yolunda fəaliyyətini yüksək qiymətləndirdikləri üçün növbəti seçkidə də yekdilliklə partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

## Mahir Abbaszadə yüzlərlə laçınlı məcburi köçkünlə görüşdü: "Vədimizə sadiqik..."



VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 121 saylı Laçın Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Mahir Abbaszadə Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsində məskunlaşmış seçiciləri ilə görüş keçirib.

Deputatlığa namizəd ona göstərilən yüksək etimada görə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə və Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban Əliyevaya təşəkkürünü bildirib. O, növbəti dönəm üçün Milli Məclisə seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, ötən illərdə olduğu kimi, Laçın əhalisinin problemlərinin həllinə çalışacağını, parlamentin işində fəal iştirak edəcəyini deyib. Ölkədə uğurlu gənclər siyasətinin həyata keçirildiyini bildirən Mahir Abbaszadə, gənclərin dövlət başçısının ətrafında sıx birləşdiyini və Onun gördüyü işləri dəstəklədiyini vurğulayıb.

Görüş zamanı 400-ə yaxın məcburi köçkünün problemlərini dinləyən Mahir Abbaszadə qeyd edib ki, onların qayğılarının hamısına yaxından bələddir və seçiləcəyi təqdirdə, hər bir ailənin müraciətinin müsbət həlli üçün müvafiq addımlar atacaq.

Görüşdə çıxış edən Laçın rayon ağsaqqalları Mahir Abbaszadəyə uğurlar arzulayıb. Tədbir iştirakçıları 9 fevral seçkilərində Mahir Abbaszadəyə səs verəcəklərini bildiriblər.

Xatırladaq ki, Laçın rayonundan olan məcburi köçkünlər Azərbaycanın 58 rayonunda məskunlaşıb. Onların səsvermədə iştirakını təmin etmək üçün 121 saylı Laçın Seçki Dairəsinin ölkə üzrə 102 seçki məntəqəsi fəaliyyət göstərir.

## Deputatlığa namizəd Nizami Cəfərovun Ağstafada seçicilərlə görüşü davam edir





Dünən Azərbaycan Respublikası Milli Məclisinə parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Nizami Qulu oğlu Cəfərovun Ağstafa rayonunun Köhnəqışlaq, Tatlı və Göycəli kəndində seçicilərlə görüşü keçirilib.

Yeni Azərbaycan Partiyasının Seçki Platforması və öz fəaliyyəti barəsində məlumat verən deputatlığa namizəd Nizami Cəfərov qeyd edib ki, partiyanın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündəngünə inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır.

Ardı Səh. 11

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-10

Sözsüz ki, bütün bunlar ölkəmizdə vətəndaşların dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəsləməsinin, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykənməsinin nəticəsidir. Əminliklə deyə bilərəm ki, vətəndaşlar əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük etimad göstərəcəklər, partiyamız bir daha möhtəşəm qələbə qazanacaq".

N.Cəfərov seçiciləri fevralın 9-da fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.

### Ziyafət Əsgərovun Astara seçiciləri ilə görüşü davam edir





Fevralın 9-da keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən 76 saylı Lənkəran-Astara Seçki Dairəsi üzrə namizədliyi irəli sürülən Ziyafət Əsgərov Astara rayonunun Şahağacı kəndində seçicilərlə görüşünü keçirib.

Deputatlığa namizəd Ziyafət Əsgərov növbəti illər üçün Milli Məclisə üzv seçilərsə, görəcəyi işlərdən, rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağından danışıb. Millət vəkili olmağın şərəfli bir iş olduğunu qeyd edən Z.Əsgərov seçicilərin etimadını qazanacağı halda, xalqın qayğıları ilə yaşayıb, insanların fikirlərini və təkliflərini Milli Məclisin tribunasından səsləndirəcəyini bildirib: "Bu səbəbdən də, çalışacam ki, seçki prosesində çox fəal olum, sizinlə davamlı görüşüm, fikirlərinizi öyrənim, problemlərinizin sizinlə birlikdə, sizin iştirakınızla həll edilməsinə səy göstərim".

O, Yeni Azərbaycan Partiyasının Seçki Platforması və öz fəaliyyəti barəsində məlumat verərək, qeyd edib ki, Partiyanın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Aparılan uğurlu islahatlar nəticəsində dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. Təbii ki, bütün bunlara görə Möhtərəm Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha da artacaqdır".

Z.Əsgərov sonda seçiciləri fevralın 9-da fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.

### Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir





111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir.

Yanvarın 23-də Kamilə Əliyeva Zaqatala rayonunda bir neçə kənddə seçicilərlə görüşüb. Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyeva təbliğat-təşviqat kampaniyası çərçivəsində günün birinci yarısında Zaqatala rayonun Yolayrıc və Höytala kəndlərinin sakinləri ilə genişmiqyaslı görüş keçirib. Günün ikinci yarısı isə onun Zaqatala rayonun Danaçı kənd sakinləri ilə fərdi görüşləri təşkil olunub. Görüşlərdə, ümumilikdə, 200-ə yaxın seçici iştirak etmişdir.

Görüşlərdə rayon təşkilatı sədri Habil Qurbanov çıxış edərək, deputatlığa namizəd Kamilə Əliyevanın bundan əvvəlki iki çağırış millət vəkili kimi gördüyü işlərdən, fəaliyyətindən bəhs edərək sakinləri seçkilərdə aktiv iştirak etməyə və layiqli namizədə səs verməyə səsləyib.

Daha sonra çıxış edən Kamilə Əliyeva son 16 il ərzində ölkədə görülən işlərdən və həyata keçirilən uğurlu siyasətdən söz açıb. Ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin uğurla icra edildiyi görüş iştirakçılarının diqqətinə çatdırıb.

Sonra görüş diskussiya şəklində davam etdirilmişdir. Sakinlər tərəfindən səsləndirilən təklif və problemlər dinlənilərək, qeydə alınmışdır. Kamilə xanım bu görüşdə insanların, ümumilikdə və fərdi şəkildə etdiyi müraciətlərə diqqətlə qulaq asaraq, aidiyyatı üzrə baxılması üçün qeydlərini götürmüşdür.

Fərdi görüşlər zamanı seçicilər millət vəkilliyinə namizəd Kamilə xanım Əliyevaya qarşıdan gələn seçkilərdə və gələcək fəaliyyətində uğurlar arzulayıblar.

### Ağdaşlılar Cavid Osmanova səs verəcəklər

Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 90 saylı Ağdaş Seçki Dairəsindən namizədi Cavid Osmanovun seçiciləri ilə keçirdiyi növbəti görüşləri rayonun Qolqəti və Korarx kəndlərində oldu.

Görüşlər giriş sözü ilə açan deputatlığa namizəd Cavid Osmanov onu yüksək qonaqpərvərlik və gülər üzlə qarşıladıqları, həmçinin, ona qarşı yekdil dəstək nümayiş etdirdikləri üçün seçicilərinə öz təşəkkürünü bildirdi. O, 3 il ərzində Milli Məclisdəki fəaliyyəti, rayon seçiciləri ilə keçirdiyi görüşlər və gördüyü işlərin qısa hesabatını seçicilərinin diqqətinə çatdırdı. Son 16 il ərzində ölkədə görülən işlərdən, həyata keçirilən uğurlu siyasətdən söz açan Cavid Osmanov bildirdi ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, ölkəmiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasət apararaq, Azərbaycan xalqının maraqlarını hər zaman müdafiə etsin. Ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin də uğurla icra edildiyi görüş iştirakçılarının diqqətinə çatdırıldı. Çıxışı zamanı son illərdə Ağdaş rayonunun sürətlə inkişaf etməsinə və bu inkişafın səbəbinin Yeni Azərbaycan Partiyasının sədri, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətin olmasına toxunan Cavid Osmanov ağdaşlıların, məhz bunun üçün də Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşdiklərini qeyd etdi. Cavid Osmanov vurğuladı ki, keçirilən bütün görüşlərdə seçicilərin ona yekdilliklə dəstək olmaları da ağdaşlıların dövlətə-dövlətçiliyə, Yeni Azərbaycan Partiyasına olan sədaqətindən irəli gəlir. Çıxışının sonunda Cavid Osmanov göstərdikləri dəstəyə və etimada görə öz seçicilərinə dərin minnətdarlığını bildirdi.

Görüşlərdə çıxış edən təbliğat qrupunun üzvləri Tənzilə





Şıxıyeva, Vaqif Hacıyev, İsmayıl Xudiyev 9 fevral tarixində keçiriləcək parlament seçkiləri haqqında məlumat verdilər, Cavid Osmanovun V çağırış Milli Məclisin deputatı kimi fəaliyyətinə nəzər saldılar və görmüş olduğu işlərdən danışdılar, seçiciləri fevral ayının 9-da seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasın namizədi Cavid Osmanova səs verməyə çağırdılar.

Qolqəti kənd seçiciləri Məmmədismayıl İsmayılov, Gülçöhrə İsmayılova və Zülfəli Zeynalov, Korarx və Cüvə kənd sakinləri Rəfail Məhyəddinov, İsrafil Xəlilov bildirdilər ki, onlar öz seçimlərini ilk gündən ediblər, səslərini yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova verəcəklər və fevral ayının 9-u günü, bu seçimlərini rəsmi olaraq təsdiqləyəcək, seçki günü hamılıqla seçki məntəqəsinə gedərək, Cavid Osmanova səs versinlər.

### Deputatlığa namizəd Sevinc Fətəliyevanın Hövsan seçiciləri ilə növbəti görüşü keçirilib

30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Sevinc Fətəliyevanın Hövsan seçiciləri ilə təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşü keçirilib. Qeyd edək ki, namizədlə görüşdə 85 nəfər Hövsan qəsəbəsi Elman Qasımov 15A, 15B, 15V məhəlləsinin sakinləri olan seçicilər iştirak etmişdir.

Görüşdə çıxış edən deputatlığa namizəd Sevinc Fətəliyeva Yeni Azərbaycan Partiyasının seçki platforması və öz fəaliyyəti barəsində məlumat verərək qeyd edib ki, partiyanın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır.

Ardı Səh. 12

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-11





Təbii ki, bütün bunlara görə, Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha da artacaq. Növbəti dəfə Yeni Azərbaycan Partiyası mənim namizədliyimi irəli sürmüşdü, səsinizi etibar edəcəyiniz tədqirdə sizlərin və partiyanın etimadını doğrultmağa çalışacam”.

Görüşdə iştirak edən qəsəbə sakinlərindən Abdullayev Bilal, Kərimov Hüseynbala, qəsəbə ağbirçəyi Əliyeva Sevil, Ağazadə Rubabə parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildirərək, namizədə uğurlar arzuladılar.

Görüş zamanı Sevinc Fətəliyeva sakinlər tərəfindən səsləndirilmiş müraciətlərə münasibət bildirərək, onları narahat edən problemlərlə bağlı aidiyyəti üzrə qurumlar qarşısında məsələ qaldıracağını qeyd etdi.

Daha sonra deputatlığa namizəd Sevinc Fətəliyeva Hövsan kənd sakinlərinin istəyi ilə onlarla görüşmüş və mövcud problemlərlə əlaqədər müzakirələr aparılmışdır.

Kənd sakinləri növbəti beşillikdə də Sevinc Fətəliyevanı deputat kimi görmək istədiklərini vurğuladılar.

## Elnur Allahverdiyev seçicilərlə görüş keçirib



Dünən 17 saylı Yasamal 3-cü Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Elnur Allahverdiyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yasamal rayonu seçiciləri ilə növbəti görüşü keçirildi.

Görüşü giriş sözü ilə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursun nəticəsi olaraq, əldə olunan nailiyyətlərə nəzər saldı. Rayon təşkilatı sədri qeyd etdi ki, Azərbaycan son illərdə böyük nailiyyətlər qazanaraq, bu gün dünyanın qabaqcıl ölkələri ilə bir sırada dayanır, beynəlxalq ictimaiyyət tərəfindən müstəqil, güclü və qüdrətli dövlət kimi qəbul olunur. T.Əhmədov daha sonra deputatlığa namizəd Elnur Allahverdiyev haqqında seçicilərə məlumat verdi.



Seçicilər qarşısında çıxış edən Elnur Allahverdiyev YAP-ın bu seçkilərə “Daha güclü Azərbaycan naminə” şüarı ilə qatıldığını bildirərək, seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını vurğuladı.

Görüşdə çıxış edənlər Elnur Allahverdiyevin yüksək keyfiyyətlərə malik, savadlı, intellektli bir şəxs olduğunu və bu seçimin Yeni Azərbaycan Partiyası tərəfindən çox düzgün qərar olduğunu qeyd ediblər.

Görüşdə çıxış seçicilər seçki günü Azərbaycanı sabitlik adasına çevirən ölkə Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədi Elnur Allahverdiyevə səs verəcəklərini bildirdilər.

Sonda Elnur Allahverdiyev seçiciləri maraqlandıran suallara ətraflı cavab verdi.

## YAP-ın deputatlığa namizədlərinin təbliğat-təşviqat kampaniyası davam edir





Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 29 saylı Səbail Seçki Dairəsindən irəli sürülən Aytən Arif qızı Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində Bibiheybət qəsəbəsi sakinləri ilə görüşüb. Görüşlər zamanı YAP-ın deputatlığa namizədi Aytən Hüseynova 9 fevralda keçiriləcək Milli Məclisə seçkilərdə namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülməsi, ictimai-siyasi fəaliyyəti, eləcə də, Milli Məclisə üzv seçilərsə görəcəyi işlər, qəsəbə üçün reallaşdırmağı düşündüyü inkişaf proqramı haqqında seçicilərə geniş məlumat verdi, sakinlərin qayğıları və problemləri ilə maraqlandı.

Seçicilər YAP-ın Sədri, ölkə başçısı İlham Əliyevin apardığı sürətli, dinamik islahatlardan, ölkənin hər yerində olduğu kimi, Səbailin də abadlaşmasından və insanların rifah halının yaxşılaşmasından razılıqlarını bildiriblər.

YAP-ın deputatlığa namizədi seçiciləri 9 fevral tarixində fəal olmağa, seçki məntəqələrinə gələrək siyasi iradələrini nümayiş etdirməyə və “Daha güclü Azərbaycan naminə!” YAP-ın rifah siyasəti kursuna səs verməyə dəvət etdi.

## “Daha Güclü Azərbaycan Naminə” səfərbər olaq





Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsinə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı işini uğurla davam etdirir. Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən 21 saylı Nəsimi Birinci Seçki Dairəsindən olan Məlahət İbrahimqızı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayon seçiciləri ilə növbəti görüş keçirib. Görüşdə çıxış edən Məlahət İbrahimqızı bu görüşlərin əhəmiyyətini vurğulayıb: “Bu görüşlərdə Siz seçicilərin Möhtərəm Prezidentimiz İlham Əliyevə və Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevaya olan etimad, inam və sevginizin bir daha şahidi olduq. Keçirilən hər bir məhəllə görüşlərində Sizin qaldırdığınız məsələlər, həlli vacib və mümkün olan problemlər bizi daha da məsuliyyətli edir. Sizinlə birlikdə və üzbəüz görüşlər bizə sonsuz enerji verməklə bizim daha məsuliyyətimizi daha da artırır. Gəlin əl-ələ verib “Daha Güclü Azərbaycan Naminə” səfərbər olaq. Sizlərin hər bir görüşdə Möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən əsaslı və genişmiqyaslı islahatların seçicilər tərəfindən diqqətlə izləməniz və dəstəkləməniz YAP tərəfindən irəli sürülmüş deputatlığa namizədlərin seçki kampaniyasının, eləcə də, seçkinin nəticələrinin daha uğurlu olacağına bizdə əminlik yaradır. Bizim məqsədimiz “Daha Güclü Azərbaycan Naminə” hər bir seçicinin xidmətçisi və səsi olmaqdır”.

Görüşdə seçicilərin partiyanın namizədinə ünvanladıqları suallar cavablandırılıb.

Seçicilər də, öz növbəsində, 9 fevral tarixində seçki məntəqələrinə gələrək, partiyanın namizədi Məlahət İbrahimqızına səs verəcəklərini bildiriblər.

Ardı Səh. 13

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-12

## OĞUZ






Yanvar ayının 23 - də 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasından deputatlığa namizədliyi irəli sürülmüş Aqiyə Naxçıvanlı təbliğat - təşviqat kampaniyası çərçivəsində rayonun Yaqublu, Top, Yenikənd və Zərrab kəndlərinin seçiciləri ilə görüşü keçirilib.

Görüşdə YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm nailiyyətlərdən və beynəlxalq aləmdəki nüfuzundan danışıb.

Deputatlığa namizədin vəkili Emin Əzimli öz çıxışında Aqiyə Naxçıvanlının rayonda seçicilərinin problemləri ilə daima maraqlandığını və həllinə çalışdığını qeyd edib.

Aqiyə Naxçıvanlı seçicilərə Yeni Azərbaycan Partiyasının seçki platforması və öz fəaliyyəti barədə ətraflı məlumat verib. Ötən dövrdə ona etimad göstərən seçiciləri layiqli şəkildə təmsil etməyə çalışdığını vurğulayan Aqiyə Naxçıvanlı, əgər seçicilər növbəti dəfə də ona etimad göstərərlərsə, bundan sonra da öz fəaliyyətini bu prinsiplər əsasında quracağını bildirib. O, seçiciləri daha güclü Azərbaycan naminə seçkilərdə fəal olmağa çağırıb.

Yüksək əhval-ruhiyyədə və səmimiyyət şəraitində keçən görüşlərdə seçicilər öz dəstəklərini ifadə edərək, görülən işlərdən razılıqlarını bildiriblər.

Görüşlərdə seçicilər adından çıxış edən Rəhman İsmayılov, Arif Əliyev, İmran Verdiyev, İlham Manafov və Qadir Abdullayev qeyd ediblər ki, hər zaman dövlətə və dövlətçiliyə sadiqdirlər və fevralın 9-da böyük coşquyla seçki məntəqələrinə gedərək, öz seçimlərini rəsmi olaraq təsdiqləyəcəklər.

## Xaçmaz

Yeni Azərbaycan Partiyasından 9 fevral parlament seçkilərində 55 saylı Xaçmaz kənd Seçki Dairəsindən Milli Məclisə namizədi Eldəniz Adil oğlu Səlimovun Çarxı, Xanlıqoba kənd seçiciləri ilə görüşü keçirilibdir. Görüşdə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev çıxış edərək, bildirib ki, bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar nəticəsində, respublikamız günü-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır.

Rayon təşkilatının sədri Milli Məclis deputatlığına namizəd Eldəniz Adil oğlu Səlimov ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Deputatlığa namizəd Eldəniz Səlimov çıxış edərək, bu seçkidə də YAP-ın namizədlərinin inamlı qələbə qazana-





caqlarına ümid etdiyini bildirib: "İnanıram ki, xaçmazlılar bu seçkilərdə doğru seçim edəcək və ən layiqli namizədə səs verəcəklər. Deputatlığa namizəd kimi, hər bir seçicinin səsini qazanmaq, Xaçmaz sakinlərini Milli Məclisdə ləyaqətlə təmsil etmək istəyirəm. Yeni Azərbaycan Partiyasını təmsil edən namizədlərdən biri kimi, üzərimə düşən məsuliyyəti çox yaxşı dərk edirəm. Yenidən millət vəkili seçiləcəyim təqdirdə, üzərimə götürdüyüm vədlərə məsuliyyətlə əməl edəcəyəm. Bütü xaçmazlıları 9 fevralda ən layiqli namizədlərə səs verməyə çağırıram".

Görüşdə Abasyar Heydərov, Eldar Qurbanov, Rəsmiyyə Quliyeva və başqaları çıxış edərək, 9 fevralda keçiriləcək seçkidə YAP-ın ən layiqli namizədlərinə səs verəcəklərini bildiriblər.

## QUSAR



YAP Qusar rayon təşkilatı parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. 51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun növbəti görüşləri rayonun Böyük Muruq, Əcəxur, Uqur və Mucuq kənd seçiciləri ilə keçirilib.

Görüşü YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, seçicilərə Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı uğurları barədə məlumat verib. Rayon təşkilatı sədri deputatlığa namizədi Azər Badamovun fəaliyyətini diqqətə çəkib.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, YAP-ın bu seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə qatıldığını bildirərək, millət vəkili seçiləcəyi təqdir-



də, bu etimadı doğrultmağa çalışacağını vurğulayıb. Tədbirdə iştirak edən YAP Qusar rayon təşkilatı idarə heyətinin üzvü Məzahir Əzizov partiyanın namizədi A.Badamovun parlametdəki fəaliyyəti barədə görüş iştirakçılarını məlumatlandırıb. O, seçiciləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş A.Badamova səs verməyə çağırıb. Görüşdə çıxış edən seçicilər Ayib Cərullayev, Əzizə Səlimxanova, Zərinə Həsənova, Ruslan Teymurov, Sedulla Xanbabayev, Tahirə Kazımova, Qədim İsayev və Yavər Əliquliyev Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd A.Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

## Daşkəsənlilər Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər

Dünən 100 saylı Şəmkir-Daşkəsən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamran Bayramov seçicilərlə növbəti görüşünü keçirib. Daşkəsən rayon Mədəniyyət Mərkəzində keçirilən görüşdə çıxış edən natiqlər bu seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilər, birmənalı şəkildə, 9 fevral 2020-ci ildə seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi Kamran Bayramova səs verəcəklərini bildiriblər.

YAP-ın namizədi Kamran Bayramov Daşkəsən şəhərində, Bayan və Quşçu kəndlərində də seçicilərlə görüşləri davam edib. Görüşdə seçicilər 9 fevralda keçiriləcək parlament seçkilərində fəal iştirak edəcəklərini və yekdilliklə YAP-ın namizədi Kamran Bayramova səs verəcəklərini bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA,***
***RƏFİQƏ HÜSEYNOVA,***
***NƏZAKƏT ƏLƏDDİNQIZI,***
***RÖVŞƏN RƏSULOV***

## "Azəriqaz"da yanvarın 24-dən xüsusi iş rejimi tətbiq olunacaq

"Azəriqaz" İstehsalat Birliyi yanvarın 24-dən xüsusi iş rejimi tətbiq edəcək. Birlikdən AZƏRTAC-a bildirilib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin yanvarın 24-dən etibarən ölkə ərazisində hava şəraitinin kəskin dəyişəcəyi barədə yaydığı məlumata əsasən, "Azəriqaz"da xüsusi iş rejimi tətbiq olunacaq. Birliyin rəhbərliyi tərəfindən bu məsələyə dair bütün struktur bölmələrə müvafiq tapşırıqlar verilib. Əmək normaları çərçivəsində istehsalatda işçilərin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlərin görülməsi diqqətə çatdırılıb. Bundan başqa, gözlənilən hava şəraitində qəza hallarının qarşısının operativ şəkildə alınması üçün idarə və müəssisələrdə məsul şəxslərdən ibarət növbətçilik təşkil ediləcək. Təhlükəsizlik qaydalarına uyğun olaraq qaz paylayıcı stansiya və qaz tənzimləyici məntəqə ərazilərində odlu işlərin görülməsi dayandırılacaq. Abonentlər hər hansı qəza nəticəsində baş verən qaz sızmaları, sərfiyyat artdığına görə qazın normal rejimdə verilməsində qeydə alına biləcək çətinliklər və sair hallarda birliyin 104/185 saylı Çağrı mərkəzinə zəng edə bilərlər. Eləcə də (+99477) 3 104 104 saylı operativ "whatsapp" nömrəsinə yazılı, səsli və ya görüntülü mesajlarla məlumat verilməsi xahiş olunur.

# YAP-ın namizədi Kamaləddin Qafarovun təhsil işçiləri ilə görüşü keçirilib

*Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında 9 fevral tarixində ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə irəli sürülmüş Kamaləddin Qafarovun təhsil işçiləri ilə görüşü keçirildi.*







Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov ölkəmizdəki seçki prosesi haqqında təhsil işçilərinə məlumat verdi. Seçkilərə hazırlıqla bağlı görülən işlərdən, seçki qərargahının fəaliyyətindən, eləcə də, təbliğat kampaniyası çərçivəsində seçicilərlə keçiriləcək çoxsaylı görüşlərdən danışdı. O bildirdi ki, ölkəmizdə 125 dairə fəaliyyət göstərir. 123 dairədə YAP-ın namizədi təmsil olunur. 9 saylı Binəqədi Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun Milli Məclisdəki fəaliyyətinə nəzər salaraq, bildirdi ki, Kamaləddin Qafarov gördüyü işlərlə artıq seçici nüfuzunu qazanıb. Böyük səs çoxluğu ilə qələbənin tam YAP-ın namizədinin tərəfində olduğuna əminliyini bildirdi. Rayon təşkilatı sədri seçiciləri layiqli namizədə səs verməyə çağırdı.

Görüşdə çıxış edən YAP-ın namizədi Kamaləddin Qafarov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atdığını bildirdi. Qeyd etdi ki, dövlət başçısının yaranan yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq fərman və sərəncamlara əsasən, müxtəlif sahələrdə aparılan islahatlar böyük aktuallıq daşıyır: "Bildiyimiz kimi, dövlət başçısının siyasi iradəsi əsasında Azərbaycanda bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatlar həyata keçirilir. Dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatlar cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Müasir dövrün çağırışları, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik fəaliyyətində də islahatların dərinləşməsini zərurətə çevirib".

Kamaləddin Qafarov müasir dövrümüzdə müstəqil Azərbaycanın tamamilə yeni inkişaf dövrünü yaşadığını vurğulayaraq, ölkəmizin naliyyətləri və uğurlarının artdığını, əldə olunan nəticələrin insanların yaşayış səviyyəsində, rifah halında əyani təsdiqini tapdığını bildirdi. Bütün deyilənlərin fonunda bir reallıq nəzərə çarpır ki, həqiqətən də, 2019-cu il Azərbaycan tarixinə sosial islahatlar ili kimi düşdü: "Cənab Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşlarımızın rifah halını yüksəldib. Təsadüfi deyil ki, Azərbaycanın inkişafını beynəlxalq reytinq təşkilatları da yüksək qiymətləndirir. Ölkəmizin uğurları fonunda anti-Azərbaycan dairələrinin qarayaxma kampaniyasını da qeyd etməliyik. Bəzi müxalif qüvvələr həyata keçirilən ən ciddi sosial-iqtisadi layihələrin uğurlarına kölgə salmağa çalışsalar da, buna nail ola bilmirlər. Ölkəmizdə qarışıqlıq yaratmaq, ictimai-siyasi sabitliyi pozmaq cəhdləri boşa çıxıb. Azərbaycan xalqının müdrikliyi, liderinə verdiyi dəyər və birmənalı dəstək nəticəsində, ölkəmizin uğurlu inkişafı davam etdirilir. Təbii ki, uğurlu islahatların aparılması ölkəmizdə sabitliyin mövcudluğundan qaynaqlanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın sürətli inkişafını təmin edib, ölkə qarşısında yeni perspektivlər açılıb. Bütün sahələri əhatə edən kompleks islahatlar Azərbaycanın qüdrətinin daha da artmasına xidmət edir".

Son illər Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatların həyata keçirilməsi mühüm dövlət proqramlarının qəbul olunması, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, vətəndaşların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu sahədə dövlət siyasətinin prioritetlərini təşkil edir. "Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi və səhiyyənin maliyyələşmə sisteminin təkmilləşdirilməsi də bu islahatların mühüm tərkib hissəsidir" deyən Kamaləddin Qafarov icbari tibbi sığortanın əhəmiyyətini diqqətə çəkdi. Bildirdi ki, icbari tibbi sığortanın məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir. Hökumətin sosial siyasətinin yeni istiqaməti və səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyəti səhiyyə sisteminin maliyyələşdirilməsinin yeni iqtisadi əsaslarda qurulmasını təminində önəmlidir.

Tibbi sığortaya keçidin bir çox üstünlükləri olduğunu deyən Kamaləddin Qafarovun sözlərinə görə, onun tətbiqi ilə biz bir sıra problemləri həll etmiş olacağıq. Qeyd etdi ki, ilk növbədə.ı hər bir vətəndaşın tibbi xidmətə əlçatanlığı təmin olunacaq. Vətəndaşlar pul xərcləmədən tibbi sığorta vasitəsilə klinikalarda müayinə və müalicə olunacaqlar.



"Bu gün Azərbaycan islahatlar dövrünü yaşayır" deyən Kamaləddin Qafarov Prezident tərəfindən həyata keçirilən islahatların hər şeyi köklü surətdə dəyişdiyini bildirdi. Azərbaycan yeni bir eranı kəşf etdi.

Seçicilər qarşısında çıxış edən Kamaləddin Qafarov YAP-ın bu seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə qatıldığını bildirərək, seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını vurğuladı. Sonra görüş diskussiya şəraitində davam etdirildi. Kamaləddin Qafarov seçicilərin problemləri ilə yaxından maraqlanaraq, onların ünvanladıqları sualları da cavablandırdı.

Yüksək əhvali-ruhiyyə ilə keçən görüşdə seçicilər artıq öz seçimlərini etdiklərini, YAP-ın namizədi Kamaləddin Qafarovu dəstəkləyəcəklərini bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

**ZÜMRÜD BAYRAMOVA**

# Siyasəti bazara döndərən müsavatçıları kim dəstəkləyəcək ki?

*Yaxud Arif Hacılı və digərləri "siyasi mühacir" bizneslərinə görə hesabat verəcəklərini unutmamalıdırlar!*



***Ölkə ciddi şəkildə parlament seçkilərinə hazırlaşır və bu seçkilərdə müxalifətin də müxtəlif cinah təmsilçilərinin iştirak edəcəkləri bəllidir. O cümlədən, müsavatçıların da seçkilərdə namizəd kimi qeydə alınmaları sirr deyil. Bu gün xalqın adından danışan Müsavat partiyasının başqanı A.Hacılı və digərləri, hələ də siyasəti bazara döndərmələrini, kifayət qədər sübuta yetirən faktlarla bağlı susqunluqlarını davam etdirirlər. Daha dəqiq desək, onlar bu məsələnin, necə deyərlər, yat-yut olacağına ümid bəsləyirlər. Ancaq belə düşünürlərsə, səhvə yol verirlər. Çünki bu məsələ hələ də gündəmdədir və onlar həmin ittiham altında qalmaqdadırlar. Bu baxımdan, xalqdan səs qoparacaqlarını xam xəyallarına qatmasalar, daha yaxşı olardı.***

### Tərəflər bir-birini ittiham etməkdə, xüsusilə, Arif Hacılının və İsa Qəmbərin hansı üzlə seçkilərə qatılacağı sorulmaqdadır

Müsavat partiyasının saxta mühacir və sənəd alveri məsələsi, getdikcə daha da dərinləşir və bu məsələ partiya daxilində əməlli-başlı iri çaxnaşmalar da yaradıb. Tərəflər bir-birini ittiham etməkdə, xüsusilə, A.Hacılının və İsa Qəmbərin hansı üzlə seçkilərə qatılacağı sorulmaqdadır. Ona görə də, səslənən ittihamlar bir daha, onu deməyə əsas verir ki, son 20 ildən artıq müddətdə müxalifət partiyalarının, xüsusən də, Müsavat və AXCP-nin rəhbərliyinin əsas fəaliyyət istiqaməti "mühacir" ixracı biznesi olub və onlar bunun sayəsində özlərinə əməlli-başlı şərait qurublar. Əks-təqdirdə, üzvlük haqqı və ianələrlə Müsavat və AXCP rəhbərliyi özlərinə belə dəbdəbəli həyat şəraiti qura bilməzdilər və bu da faktdır!

Bu arada, müsavatçı Elnur Mirzəyevin partiya rəhbərliyinə qarşı ünvanladığı bəyanatını bir daha xatırlatmaq olar. Sözügedən bəyanatında çoxsaylı və həqiqəti əks etdirən ittihamları önə sürən E.Mirzəyev mətbuata açıqlamasında bildirmişdi: "Mən partiyaya yazılan gün rəhbərliyə demişdim ki, burdan getmək ehtimalım var. Partiyaya üzv olmaq üçün külli miqdarda pul vermişəm. Konkret rəqəm lazımdırsa, deyim: 1800 manat. Bu hadisə 2011-ci ildə olub. Amma vəsiqəni köhnə tarixlə - 2008-ci ilə verdilər ki, inandırıcı olsun. Özləri də mənə dedilər ki, 2011-ci ilin noyabr ayındakı mitinqlərdə iştirak elə, şəkillərin olsun. O halda, mühacirət statusu almağın daha asan olacaq. Onlar özləri orda ticarətlə məşğuldular. Maskaları cırılanda isə, məni güdaza vermək istədilər".

Göründüyü kimi, burada yalnız deputat olmaq həsrəti ilə yaşayan A.Hacılı deyil, eləcə də, digər müsavatçılar, əsasən də, partiyanın sabiq başqanı İsa Qəmbərin də barmağının olması sirr deyil. Çünki onun razılığı olmadan, kimsə belə bir siyasi dələduzluq əməllərinə girişməzdi. Lakin qayıdaq yenə məsələnin məğzinə...

### İttihamlar davam edir: "Hamı bilir ki, 6-7 ildir Müsavat partiyası bu alverlə məşğuldur"

E.Mirzəyev, həmçinin, Gülağa Aslanlı tərəfindən yayılan və saxta kimi təqdim edilən iki arayışı elə onun özündən aldığını və bu sənədlərin hər birinə 300 manat ödədiyini bildirib. O, əlavə edib ki, lazım olsa, sübutları da təqdim edəcəyəm: "Mesajlar, "facebook" yazışmaları, "vatsap" yazışmaları var əlimdə".

E.Mirzəyev onu da əlavə edib ki, Müsavatda saxta sənəd alveri ilə məşğul olanların maskasını cıracaq: "Hamı bilir ki, 6-7 ildir Müsavat partiyası bu alverlə məşğuldur. Sadəcə, indi işləri üzə çıxdı, məni qurban verdilər. Mən isə bu məsələni belə qoymayacam".

Xatırladaq ki, bu, hələ alman polisinin Müsavat partiyasının üzvlərini, daha dəqiq desək, Müsavat AKM təmsilçilərinin həbs etməmişdən öncə, baş verən hadisədir. Hələ o zaman belə həyəcan təbilləri çalınırdı...

### Daha bir müsavatçı: "Sübutları ara-sıra bəzilərinə göndərdim"

Avropada yaşayan gənc fəal Nahid Cəfərov da məsələ ilə bağlı şok faktları ortaya qoymuşdu. Belə ki, onun sözlərinə görə, düz 2 il bundan öncə, Müsavatda sənəd alveri ilə bağlı "Meydan" TV-də yazısı gedib. "Həmin yazıdan sonra bütün Müsavat heyəti düşdü üstümə və məndən sübut tələb etdilər. Sübutları ara-sıra bəzilərinə göndərdim. Daha sonra Laçın Məmişov çıxdı və sənədli və şahidli faktlar qoydu ortaya. Şahid Rəşad adlı birisi efirə çıxdı və zərərçəkmiş kimi çıxış etdi. Mehdi Xəlilbəyli adlı birisinin onu necə aldatdığını və Müsavatdan sənədi pulla necə aldığını efirdən səsləndirdi. Müsavat yenə də sübut tələb etdi" deyə o, xatırladıb.

### Tofiq Yaqublu: "Divan üzvü, başqan müavini olmağım da yetərli olmadı..."

Maraqlı məqamlardan biri də budur ki, Müsavat başqanlığına namizəd olmuş və uduzdurulmuş, bu gün isə, daha çox AXCP sədri Əli Kərimlinin həndəvərində dolaşan Tofiq Yaqublu da baş verən hadisələrlə bağlı Müsavat rəhbərliyini ciddi ittiham edib. O, sosial şəbəkə hesabında partiya başqanı Arif Hacılının ünvanına sərt ittihamlar səsləndirib: "AKM və saxta arayışlar haqqında. 2016-cı ildən partiya rəhbərliyindən mühacirlərə verilmiş arayışlarla tanış olmaq üçün imkan yaradılmasını tələb etmişəm, ancaq buna imkan verilməyib. Hörmətli başqan Arif Hacılı canlı yayımların birində dedi ki, partiya üzvü yazılı ərizə ilə müraciət etsə, ona həmin arayışlarla tanış olmaq imkanı yaradılacaq. Bundan dərhal sonra mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlının adına bir ərizə də yazdım, lakin heç bir xeyri olmadı və bildirilən 197 arayışla tanış olmaq imkanı yaradılmadı. Divan üzvü, başqan müavini olmağım da yetərli olmadı. Baxın, hüququm ola-ola və partiyanın da mənə həmin şəraiti yaratmasına borclu olmasına baxmayaraq, 3 il ərzində həmin arayışları mənə göstərmədilər, amma canlı yayımda səsləndirdiyim fikirdən yapışaraq, elə ertəsi günü məndə olan sübutları onlara təqdim etməyi tələb edirlər. Bilə-bilə ki, mənim həmin sübutu lazım bildiyim qədər özümdə saxlamaq və mənbəyini aşkarlamamaq hüququm var. Heç narahat olmayın, özüm münasib bildiyim şəkildə və şəraitdə nə lazımdırsa, açıqlayacam. Siz hələ ortada olan suallara cavab verin. "AKM" haqqında da bir neçə kəlmə deyim. AKM Müsavat partiyasının strukturudur, onun rəhbərliyinin təşkilatçılığı və tapşırığı əsasında yaradılıb. Nizamnaməsi partiyada hazırlanıb və təşkilatın yaradılması prosesi divanın nəzarətində olub. Bu illər ərzində, Bakıdan idarə olunub. Sadəcə olaraq, rəsmi qeydiyyatdan keçən zaman Almaniya qanunlarının onu partiyanın Avropa strukturu kimi qeydə alınmasına imkan verməndiyinə görə, QHT kimi qeydiyyatdan keçirməyə məcbur oldular. İndi də bu QHT faktorundan yapışaraq, "AKM-in Müsavat" partiyasına aidiyyatlı olmadığını deyirlər. Sanki biri pulunu verib ev alıb, uzun müddətdir ki içində yaşayır və hansı səbəbdənsə, onu öz adına rəsmiləşdirə bilməyib, yaxın qohumunun adına yazdırıb. Ortaya problem çıxanda da, evin ona aid olmadığını deyir".

### Təmsil olduqları partiyalarının məram və proqramından öz biznes imperiyalarını yaratmaq üçün istifadə ediblər

Bu və digər şəxslərin səsləndirdiyi fikirlər isə, söz yox ki, bu günün özündə də, yəni seçkilər ərəfəsində partiyada ciddi çalxalanma yaradıb. Artıq bu işdə, bilavasitə əli olan və saxta sənədlərin hazırlanmasında müstəsna rolu olan Müsavatın mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlı onların ünvanına səslənən ittihamları hər vəchlə rədd etsə də, onun bu yalanlarına kimsə inanmır. Sübut olaraq, Gülağa Aslanlını Almaniyada yaşayan azərbaycanlı mühacir, keçmiş jurnalist Yafəz Həsənovu məhkəməyə vermə faktını misal çəkə bilərik. Hansı ki, Yafəz Həsənov "mühacir alveri"ndə adı keçən Müsavat partiyası rəhbər şəxslərinin və funksionerlərinin siyahısını açıqlayıb.

Bütün bunlar, onu deməyə əsas verir ki, Müsavat və digər müxalifət partiyalarının məqsədi, təmsil olduqları partiyalarının məram və proqramından öz biznes imperiyalarını yaratmaq üçün istifadə ediblər. Keçirdikləri aksiyalar, hökumətə qarşı sərt fəaliyyətləri də, ancaq bu bizneslərinin daha da inkişaf etdirilməsinə xidmət edib. İndi də utanmazcasına seçkilərdə nə isə əldə edəcəklərini sanırlar. Əlbəttə ki, yenə də xam xəyallarına qapılaraq.

**Rövşən NURƏDDİNOĞLU**

---



*Üç meymun triosu...*

**RƏFİQƏ**

***Hədəf yenə Azərbaycandır. Sanki müzakirə ediləsi başqa məsələ yoxdur. Bir qrup ermənipərəst deputat, Cors Soros adlı qoca tülkünün havadarlığı ilə yenidən dişlərini qıcıyıb Azərbaycana qarşı hücuma keçiblər. Yenə də bu üç meymun triosu - "Amnesty İnternational", "Sərhədsiz Reportyorlar" və "Human Rights Watch" ortaya atılaraq meymunluq edir. Necə deyərlər, kar-kor və lal olan bu qərəzli varlığı ilə yoxluğu bilinməyən üç meymun triosu nə üçün Avropada və ABŞ-da dini-irqi diskriminasiyanı, rasizmi, neonasizmi və insan hüquqlarının kütləvi şəkildə pozulmasını görmürlər, yaxud görmək istəmirlər?! Halbuki Almaniya, Fransa, Böyük Britaniya kimi dövlətlərdə insan hüquq və azadlıqlarının pozulması, müstəqil bloqqerlərin, hakimiyyətləri tənqid edən medianın sıxışdırılmasına dair çoxsaylı faktlar mövcuddur. İkili standartlar budur. Qəzəb, qərəz və qısqanclıq triosunun çirkin əməlləri budur. Dünyaca məşhur bu "3 meymun" taktikası özlərini insan hüquqlarının və media azadlığının carçısı kimi təqdim edən "Amnesty İnternational", "Sərhədsiz Reportyorlar" və "Human Rights Watch" təşkilatlarının əsas fəaliyyət amalına çevrilib.***

Bütün bunlar, bir daha sübut edir ki, özünə beynəlxalq təşkilat statusu biçən "Amnesty İnternational", "Sərhədsiz Reportyorlar" və "Human Rights Watch" Qərb dövlətlərində baş verən hadisələrin üzərindən sakit keçirlər, ən yaxşı halda, kiçik bir münasibət bildirirlər. Bəli, sadalanan faktlar, onu göstərir ki, dünyada ikili standartlar baş alıb gedir, insan hüquqları və demokratiya yalnız Qərb dövlətləri kiməsə təsir etmək istəyəndə, yada düşür. Bax, "demokratiya carçılarının" əsl siması budur. Bu simasızlar ölənə kimi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artmasından, regionda söz sahibinə çevrilməsindən rahat olacaq. Artıq dönməz xarakter alan siyasi və sosial-iqtisadi islahatlar, xalqın rifahının günü-gündən yüksəldilməsi yönündə ard-arda verilən sərəncamlar, dövlət idarəçiliyində yeni standartların tətbiqi, imzalanan əfv fərmanları bunların yuxusuna haram qatacaq. Ancaq qara yaxmaq, heç bir sübut olmadığı halda, qətnamə qəbul etmək? Azərbaycana diş qıcıyanlar bilməlidir ki, yalan ayaq tutar, amma yeriməz. Bu üç qərəzli trio anlamır ki, bu ləkə bu dövlətə yapışmayacaq. Azərbaycanla əmr dilində danışmaq mümkün deyil. Azərbaycan Ermənistan kimi kiminsə forpostu da deyil. Ona görə də nə qədər böhtanlar yağdırsanız da, "arzularınız" ürəyinizdə qalacaq və necə deyərlər, sirkə nə qədər tünd olsa, öz qabını çatladar.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

24 yanvar




## Kasilyas İspaniyada prezident olacaq?

***"Portu"nun qapıçısı İker Kasilyas İspaniya Kral Futbol Federasiyasının prezidentliyinə namizədliyini irəli sürə bilər. Trend-in məlumatına görə, İspaniya Futbolçuları Assosiasiyası millinin sabiq qapıçısının namizədliyini dəstəkləyir. Qeyd edək ki, 38 yaşlı qapıçı ötən ilin may ayında məşqdə infarkt keçirib və həmin tarixdən bəri bərpa kursu keçdiyinə görə hələ də meydana çıxa bilməyib. Onun yaxın vaxtlarda karyerasını bitirəcəyi istisna edilmir.***

## Türkiyəli futbolçu 16 yaşında "Ayaks"ın tarixinə düşdü



Ayaks"ın futbolçusu Naci Ünüvar komandada qol vuran ən gənc oyunçu olaraq klubun tarixinə düşüb. Qol.az xəbər verir ki, əslən türkiyəli olan oyunçu Hollandiya kubokunun 16-cı turunda "Spakenburq"la matçda meydana çıxıb. O, oyunun son dəqiqələrində penaltini düzgün yerinə yetirib. Bununla da Naci Ünüvar komanda tarixində qol vuran ən gənc futbolçu olub-16 yaş 223 günlüyündə.

## "Qarabağ" İspaniyadan hücumçu transfer edib



Ağdamın "Qarabağ" klubu İspaniyanın "Leqanes" komandasının hücumçusu Ovusu Kvabenanı transfer edib. 22 yaşlı qanalı hücumçunun Ağdam klubu ilə imzaladığı müqavilənin detalları barədə məlumat verilməyib. Qeyd edək ki, O.Kvabena cari mövsümün ilk hissəsini icarə əsasında Sequnda təmsilçisi "Kordoba"da keçirib. Futbolçu, həmçinin Qana millisinin heyətində də 3 oyun keçirib.

## ELAN

**Kaspian Esteyt Solyuşen MMC VÖEN 1900545381-yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri, müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Kaspian Esteyt Solyuşen Azərbaycan MMC VÖEN 1900578711-yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri, müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Kaspian Esteyt Solyuşen Baku MMC VÖEN 1900578841-yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri və müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Kaspian Real Esteyt Kompani MMC VÖEN 1900580301-yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri və müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Baku Esteyt Kompani MMC VÖEN 1900578151-yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri və müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Baku Hauzing Soiyuşen MMC VÖEN 1900578021 -yə məxsus kassa ödənişləri, bank ödənişləri, kadr heyəti sənədləri və müqavilələr itdiyi üçün etibarsız sayılır. Sənədləri tapan şəxsi mükafat gözləyir.**

* * *

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya ixtisası üzrə 1804 B qrupu tələbəsi Vəliyeva Sevinc Anar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**Salyan rayonu Yenikend kend sakini Hüseynov Ramil Qardaş oğluna mexsus torpaq sahesine 07.03.2018 ci il tarixde verilmiş 1223244 nömreli Çıxarış itdiyi üçün etibarsız sayılır.**

## Yaşıl çay gözlər üçün faydalıdır



Böyük Britaniyanın oftalmologiya jurnalında dərc edilmiş tədqiqata əsasən, gün ərzində azı bir stəkan yaşıl çay qəbulu qlaukomanın inkişaf riskini azalda bilər.

Kaliforniya Universitetindən olan alimlərin apardıqları tədqiqatda gün ərzində azı bir stəkan yaşıl çaydan istifadə edən könüllülər iştirak ediblər. Nəticələr göstərib ki, çay həvəskarlarının qlaukoma xəstəliyinə tutulmaq şansı digərlərinə nisbətən 74 faiz azdır. Özü də maraqlıdır ki, söhbət yalnız isti çaydan gedib. Buzlu çay içənlərə bu üstünlüyü əldə etmək nəsib olmayıb. Alimlər isti yaşıl çayla qlaukoma arasında bağlılıq barədə suala hələ də cavab tapmayıblar. Bu barədə "MedikForum"a istinadla xəbər verir.

Çay tərkibindəki bioloji aktiv maddələrlə zəngindir. Bunlardan bəzilərinə flavonoid və katexinlər kimi güclü antioksidant olmayan polifenollar daxildir. Bu qidalandırıcı maddələr orqanizmimizdəki zərərli sərbəst radikalları azaltmağa kömək edir, həmçinin bizim hüceyrələrimizi və molekullarımızı zədədən müdafiə edir.

Bu içki beynin fəaliyyətini yaxşılaşdırır. Çayın tərkibində olan lazımi qədər kofein bədənə gümrahlıq qatır, sizi əsəbiləşməyə məcbur etmir. Yaşıl çay, həmçinin L-teanin aminoturşusu ilə zəngindir. Bu maddə beyində dofamini artırmağa və alfa dalğaları əmələ gətirməyə qadirdir. Alfa dalğalar isə orqanizmi sakitləşdirir.

Yaşıl çayın qəbulu zamanı orqanizmdə piylərin əriməsi prosesi sürətlənir və fiziki iş qabiliyyəti yüksəlir. Həmçinin maddələr mübadiləsi artır və piylərin qısa vaxt ərzində əriməsi təmin edilir. Yaşıl çayın tərkibindəki antioksidantlar bəzi növ xərçəngin əmələgəlmə riskini azaldır, süd vəzisi, prostat və bağırsaq xərçəngi kimi geniş yayılan xəstəliklərə qarşı mübarizə aparır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**